Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

6 DEKABR 2019-cu il

№ 217 (4115)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN ARVADI AKOPYAN MEHRİBAN XANIMIN BƏYANATINDAN QORXUYA DÜŞDÜYÜNÜ GİZLƏDƏ BİLMƏDİ

səh. 6

Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edildi

səh. 2

Azərbaycanda kadr islahatları davamlı prosesə çevriləcək - yüksək təminat Prezidentdən gəldi

səh. 5

Prezident icra başçılarına sadə insanlarla ünsiyyətin ən məqbul formasını öyrətdi...

səh. 3

Prezident məmurların mütləq əksəriyyəti üçün xas olan neqativ işi açıq şəkildə bəyan etdisə...

səh. 5

Radikal müxalifət illərin ən uğursuz boykot taktikasından bu dəfə də yaxa qurtara bilmədi

səh. 10

ABŞ və AB arasında qızışan iqtisadi qarşıdurma manatı dollar və avro qarşısında daha güclü mövqeyə çıxarır

səh. 11

Düzgün neft siyasəti Azərbaycanı dünya neft bazarındakı çalxalanmalardan sığortalayır...

səh. 7

Hacıqabul sənaye zonası təcrübəsi özünü doğruldacaqmı...

səh. 12



## Lavrovun Bakı səfəri, ardınca Bratislava görüşü... Ermənistanı qorxu bürüdü - «Bakı istəyinə nail olmasa savaşa başlayacaq»

səh. 9





**Azərbaycanda icra başçılarının ünvanına ilk xəbərdarlıq - «...sizi cəzalandıracam»...**

səh. 3

**Prezident deputat korpusunun yenidən formalaşacağını rəsmən bəyan etdi**

səh. 4

**Bratislavadan sonra torpaq güzəştləri barədə söhbətlərə Azərbaycanın sərt və birmənalı yanaşması...**

səh. 8

səh. 4

Azərbaycanda icra başçıları özlərinə iş planı tuturmu - Prezident səmərəli iş üçün müstəsna əhəmiyyətli üsulu xatırlatdı...



səh. 6

Struktur - kadr islahatlarının Azərbaycanın beynəlxalq nüfuzuna əsaslı təsiri görünən təzahür kimi...



səh. 12

İcra başçıları üçün yeni sınaq - yerli və xarici biznesmenlərlə iş qurmağı kimlər bacara biləcək...



səh. 13

Yediyimiz dönərlərdə piy əvəzinə sabun yağı - dəhşətli deyilmi...



səh. 14

Milli Azərbaycan Tarixi Muzeyi 100 illik yubileyə hansı görkəmdə gedir...



## Miroslav Layçak Qarabağ münaqişəsinin real eskalasiya təhlükəsindən danışdı

**Dağlıq Qarabağ münaqişəsinin real eskalasiya təhlükəsi mövcuddur. "Trend"in məlumatına görə, bunu Slovakiyanın Xarici işlər naziri və ATƏT-in hazırkı sədri Miroslav Layçak ATƏT Xarici İşlər Nazirləri Şurasının 26-cı iclasında deyib.**

O bildirib ki, dialoq bütün il boyu davam edib:"Müxtəlif platformalar vasitəsilə təşkilatı etimadı möhkəmləndirmək, gərginliyi azaltmaq və dialoqu dəstəkləməyə çalışıb. Dağlıq Qarabağ münaqişəsinin real eskalasiya təhlükəsi mövcuddur. Mənim münaqişələri birdəfəlik həll etməklə bağlı sehrli formulum yoxdur. Amma qəti şəkildə əminəm ki, ATƏT-in yeni dialoq kanallarının açılması, gərginliyin azaldılması üzrə səyləri misilsizdir və ATƏT sülh üçün konkret addımlara dəstək göstərən birinci təşkilatdır".

## Azərbaycan-Qırğızıstan əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib

**4 dekabr tarixində səfir Hidayət Orucovla Qırğız Respublikasının (QR) Prezidenti Aparatının Xarici siyasət şöbəsinin müdiri Daniyar Sıdıkov arasında görüş keçirilib.**



Görüşün əvvəlində H.Orucov D.Sıdıkova "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi" yubiley medalını təqdim edərək, bu dövlət mükafatının Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsis edildiyini bildirib.

D.Sıdıkov yubiley medalı ilə təltif edildiyinə görə dərin təşəkkürünü bildirərək, yüksək mükafatın təqdim edilməsini böyük şərəf hesab etdiyini və ilk xarici dövlət mükafatını qardaş Azərbaycandan alması onun üçün qurur verici olduğunu vurğulayıb. Öz növbəsində o, səfir H.Orucovu "QR Xarici İşlər Nazirliyinin yaranmasının 75 illiyi yubiley medalı" ilə təltif edilməsi ilə bağlı təbrik edib. Qeyd edib ki, Qırğızstanda akkreditə olunmuş diplomatik korpusdan yalnız səfir H.Orucov bu yüksək mükafatla təltif olunub.

Təbrikə görə təşəkkürünü bildirən səfir H.Orucov Prezident İlham Əliyevin 14-15 oktyabr 2019-cu ildə Bakı şəhərində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü çərçivəsində QR Prezidenti Sooronbay Jeenbekovla səmimi görüşünü xatırlayaraq, ölkələrimiz arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu vurğulayıb. Son illər ərzində Azərbaycan-Qırğızıstan əlaqələrinin müxtəlif istiqamətlər üzrə genişlənməsini məmnunluqla vurğulayan səfir ölkələrimiz arasında iqtisadi-ticari sahədə əməkdaşlığın daha da inkişafı üçün böyük potensialın olduğunu bildirib.

Görüşdə Qırğızıstan-Azərbaycan əməkdaşlığının indiki vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb, digər aktual məsələlər müzakirə olunub.

# Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edildi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin beşinci çağırışının buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisi buraxılsın.

Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilir.



# Nazir Vilayət Eyvazov Kolumbiyanın ölkəmizdəki yeni səfirini qəbul etdi

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabrın 5-də Kolumbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenası qəbul edib.**



Qonağı salamlayan nazir onu yeni təyinat münasibətilə təbrik edib və diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Nazir iki dövlət arasında siyasi, mədəni və humanitar sahələrdə əməkdaşlığın mövcudluğunu, qarşılıqlı səfərlərin bu əlaqələrin genişləndirilməsinə və inkişafına təkan verdiyini, beynəlxalq arenada Kolumbiya hökumətinin Azərbaycanın mövqeyini hər zaman dəstəklədiyini məmnunluqla diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyi ilə Kolumbiyanın Milli Polisi arasındakı əlaqələrdən söz açan general-polkovnik V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın yaradılması və təcrübə mübadiləsi məqsədilə bu ölkənin asayiş keşikçilərindən ibarət nümayəndə heyətinin dörd il öncə Azərbaycanda olduqlarını, səfər çərçivəsində nümayəndə heyəti ilə DİN-də görüş keçirildiyini, onların "102" Zəng Mərkəzi Sistemi, "Təhlükəsiz Şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzi, habelə Əlahiddə Çevik Polis Alayının fəaliyyəti ilə yaxından tanış olduqlarını xatırladıb.

Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərinin, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin diqqət mərkəzində dayandığı və belə qlobal xarakterli təhlükəli cinayətlərlə səmərəli mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi nəzərə çatdırılıb.

Səfir Luis Antonio Dimate Kardenas səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, paytaxt da daxil olmaqla, ölkəmizin bütün bölgələrində yaradılmış təhlükəsiz və əmin-amanlıq şəraitindən məmnunluq duyduğunu, respublikamızdakı diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyini bildirib.

# Zakir Həsənov cəbhəboyu zonada artilleriyaçıların döyüş hazırlığını yoxladı

**Müdafiə Nazirliyinin rəhbərliyi artilleriyaçıların döyüş hazırlığını yoxlamaq məqsədilə ön xətdə yerləşən artilleriya hərbi hissəsində olub.**



Nazirlikdən verilən məlumata görə, raket və Artilleriya Qoşunları bölmələrinin şəxsi heyəti ilə görüşən nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığını, döyüş vəziyyətində tətbiqini, idarəetmə fəaliyyətini və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yoxlayıb, silahlanmada olan silah və texnikaya baxış keçirib.

Nazir Zakir Həsənov Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin daha da artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

**"Bakı-Xəbər" qəzetinin kollektivi baş redaktor Aydın Quliyevə yaxın qohumu, sabiq əməkdaşımız Əlövsət Quliyevin vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Azərbaycanda icra başçılarının ünvanına ilk xəbərdarlıq - "...sizi cəzalandıracam"...

**"İcra başçıları həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyalar cəlb etməlidirlər". Bunu Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**

*"Rayonda elə bir mühit yaratmalıdırlar ki, ora yerli və xarici kapital gəlsin"*

Ölkə başçısının sözlərinə görə, işsizliklə bağlı olan problemlər, bütövlükdə, Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edirlər: "Ancaq mən bunu dəfələrlə demişəm. Bəzi qonşu ölkələrdən fərqli olaraq, bizim əhalimiz artır. Cənubi Qafqazda Azərbaycan yeganə ölkədir ki, əhalisi artır və Sovet dövründən sonra müstəqillik illərində, demək olar ki, 30 faiz artıb, 7 milyondan 10 milyona çatıb. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın və iş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə də icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyalar cəlb etməlidirlər ki, yerli istehsal artsın, işsizlik daim aşağı səviyyədə olsun".

Yerli və xarici sərmayənin rayonlara cəlb edilməsi regionların inkişafına əlavə təkan verəcək. Nəticədə iş tapmaqdan ötrü rayonlardan paytaxta axın azalacaq. Artıq bir neçə ildir dövlət başçısı icra başçıları qarşısında belə bir tələb qoyub. Bütövlükdə, sözügedən iş necə qurulmalıdır, ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bununla bağlı bir sıra işlər görülməlidir: "Cənab Prezidentin bölgələrə təyin etdiyi icra başçılarının qarşısında qoyduğu tələblərdən biri də yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlıdır. Bu istiqamətdə məqsədyönlü işlərin aparılması və nəticənin ortaya qoyulması başlıca vəzifədir. Artıq bu kriteriya yerli icra başçılarının fəaliyyətində əsas meyara çevrilir. Yəni etimadı doğrultmaq istəyən icra başçısı bu yöndə fəaliyyət göstərməli və nəticə ortaya qoymalıdır. Çünki investisiyaların cəlb edilməsi kriteriyası ön sırada dayanıb. Onların fəaliyyətinə qiymət əsasən bu parametrə görə veriləcək. Bunun necə qurulmasına gəldikdə isə, bir sıra məqamlara toxunmaq istəyirəm. İcra başçıları sərmayələrin cəlb edilməsi ilə bağlı tez-tez iş adamları ilə görüşlər keçirməli, onları dinləməli və sahibkarları narahat edən məsələləri yoluna qoymalıdırlar. O zaman həm yerli, həm də xarici sərmayədarlar rayonlara investisiya qoymaqda maraqlı olacaqlar. Nəticədə rayonlarda istehsal və xidmət sektorunun sferası genişlənəcək. Ona görə də icra başçıları rayonlarda iş adamları ilə və ümumən insanlarla işləməlidirlər. Rəhbərlik etdikləri rayonların iqtisadi potensialını, imkanlarını düzgün təhlil etməlidirlər. Daha sonra buna görə işi qurmalıdırlar.

***Fikrət Yusifov:** "İcra başçıları sərmayələrin cəlb edilməsi ilə bağlı tez-tez iş adamları ilə görüşlər keçirməli, onları dinləməli və sahibkarları narahat edən məsələləri yoluna qoymalıdırlar"*



Bununla yanaşı, rayonun iqtisadi durumunun yaxşılaşdırılması nöqteyi-nəzərdən sistemli işlər görülməlidir. Bir sözlə, icra başçıları yaradıcı olmalıdırlar. Rayonda elə bir mühit yaratmalıdırlar ki, ora yerli və xarici kapital gəlsin. Özü də məqsədyönlü fəaliyyət göstərməli, mənbələr tapmalıdırlar. Bu gün həm daxildə, həm də xaricdə kifayət qədər sərbəst vəsaitin olması hər kəsə bəllidir".

**Vidadi ORDAHALLI**

# Prezident icra başçılarına sadə insanlarla ünsiyyətin ən məqbul formasını öyrətdi...

**"Vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır. Bu sizin iş qrafikinizdə əsas prioritet məsələ kimi olmalıdır". Bunu Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**



***Rəsul Cahangirli:** "İcra başçılarının insanlarla təmasının işgüzar xarakterli olmasına ciddi ehtiyac var"*

Dövlət başçısının sözlərinə görə, şəhər və rayonlarda iqtisadi inkişaf icra başçılarının əsas vəzifəsi olmalıdır: "Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin. İşsizliklə bağlı olan problemlər öz həllini tapsın. Vətəndaşlarla siz daim təmasda olmalısınız. Bütün mövcud olan problemləri ilk növbədə çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır".

Prezident onu da qeyd edib ki, problemlərin bir hissəsi mərkəzi icra orqanlarının səlahiyyətindədir: "Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız və eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları siz özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə də vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır. Bu sizin iş qrafikinizdə əsas prioritet məsələ kimi olmalıdır".

Zaman-zaman bəzi icra başçılarının vətəndaşlarla ünsiyyəti formal xarakter daşıdığı üçün, rayonlarda mövcud olan problemlər ya vaxtında həll olunmayıb, ya da, ümumiyyətlə, həllini tapmayıb. Ona görə də Prezident İlham Əliyev haqlı olaraq bildirdi ki, icra başçılarının vətəndaşlarla ünsiyyəti formal xarakter yox, işgüzar xarakter daşımalıdır.

*"Bu cür yanaşma rayonlarda mövcud problemlərin həllini sürətləndirə bilər"*

Sözügedən məsələni dəyərləndirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, rayonlarda mövcud olan sosial problemlərin həlli icra başçılarının əhali ilə işgüzar xarakterli ünsiyyətindən keçir: "Həqiqətən də işgüzar ünsiyyət problemlərin həllini sürətləndirə bilər. Əfsuslar olsun ki, bir sıra icra başçıları əhali ilə işgüzar ünsiyyətə meylli deyil, xüsusən də köhnə təfəkkürə malik icra başçıları. Bir sıra hallarda belələri insanlarla ünsiyyət yaratmaqda, onların problemlərini dinləməkdə maraqlı olmurlar. Hətta insanlara yuxarıdan aşağı baxırlar. Hansı ki, problemləri dərindən öyrənsələr, onların həllinə əməli səy göstərsələr, o zaman vəziyyət tamamilə fərqli olacaq. Ona görə də Prezident İlham Əliyev icra başçıları qarşısında bu məsələni qaldırmaqla son dərəcə vacib bir məqama toxundu. Sadə insanlarla ünsiyyətin ən məqbul variantını icra başçılarına göstərdi. Hesab edirəm ki, icra başçılarının insanlarla təmasının işgüzar xarakterli olmasına ciddi ehtiyac var. İcra başçıları bundan sonra sözügedən məqama xüsusi önəm verməlidirlər".

**Vidadi ORDAHALLI**

# Prezident deputat korpusunun yenidən formalaşacağını rəsmən bəyan etdi

**Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən ölkəmizdə köklü islahatlar aparıldığından danışıb.**




O bildirib ki, bu islahatlar, demək olar ki, bütün sahələri əhatə edir: "İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil etmişlər. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişiklikləri həyata keçirildi, yeni rəhbərlər təyin edildi. Beləliklə, nəticə də göz qabağındadır.

Ona görə struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edildi, Milli Məclis yenidən formalaşacaq. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir".

## *Elşən Mustafayev: "Bu yeniliyin fonunda, müxalifətin parlamentdə daha çox yer almasını istəyirik"*

Göründüyü kimi, dövlət başçısı ölkədə aparılan islahatlar fonunda, Milli Məclisin yeniləşəcəyinin anonsunu verdi. Parlamentin yeniləşəcəyi ilə bağlı verilən anonsa müxalif dairələrin münasibəti və gözləntiləri necədir?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ümumən, ölkədə gedən istənilən dəyişikliyə onlar müsbət yanaşırlar: "Parlamentin zəif fəaliyyət göstərdiyini biz dəfələrlə demişik. Ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi hakim partiyanın istəyindən sonra gündəmə gəlib. YAP-ın özü də yeni seçkinin keçirilməsi ilə bağlı göstərdiyi səbəblər də köhnə parlamentin islahatların ruhuna cavab verə bilməməsi ilə bağlıdır. Səbəbi nə ilə izah etsəslər də, hadisənin özü ölkədə siyasi aktivlik yaratmağa xidmət edə bilər. Amma bu o halda olacaq ki, siyasi partiyalar, müstəqil namizəd olmaq istəyən şəxslər əvvəlki seçkilərdən daha yumşaq və rəqabətə dözümlü seçki keçirəcəyənə inansınlar. Çünki bugünkü Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları ilə hətta nisbətən azad seçki keçirilməsinə inam azdır. Həm ölkə Prezidenti, həm də YAP rəhbərliyi əvvəlkindən fərqli parlamentin formalaşacağı ilə bağlı anonslar veriblər. Hətta tərkibin daha da cavanlaşacağı bildirilib. Biz bilirik ki, parlament seçki əsasında formalaşır. Yeniləmə deyəndə hakim komanda bunu nəzərdə tuta bilər. Onlar bu seçkilərdə də mütləq qələbə qazanacaqlarını hədəfləyirlər. Bu səbəbdən də parlament çoxluğunun özlərinin partiya siyahısı ilə irəli sürəcəkləri namizədlərdən formalaşacağı qənaətindədirlər. Yalnız bu səbəbdən YAP parlamentdə hansı göstəricilərə malik insanların çoxluq olacağına dair fikirlər bildirir. Digər partiyalara, müstəqil şəxslərə bu göstərişlər şamil ola bilməz. Təbii ki, biz də yeniliyin tərəfdarıyıq. Ancaq bu yeniliyin fonunda, müxalifətin parlamentdə daha çox yer almasını istəyirik. Hakimiyyətin parlamentlə bağlı ortaya qoyduğu siyasi iradəni normal hesab edirik. Ancaq çox istərdik ki, onun fomalaşma mexanizminə də ciddi nəzarət olunsun.

*"Hakimiyyətin parlamentlə bağlı ortaya qoyduğu siyasi iradəni normal hesab edirik"*

Yox, bu seçki indiyə qədər keçirilən seçkilərdən fərqlənməyəcəksə və siyasi mühitə sabitlik gətirməyəcəksə, parlamentə növbədənkənar seçkinin keçirilməsinə nə ehtiyac var? Bütün bunlara rəğmən, inanmaq istəyirəm ki, az da olsa, əvvəlki seçkilərdən fərqli seçki keçirəcəklər . İstənilən halda, seçki elanandan qısa müddət sonra hakimiyyətin seçkilərlə bağlı mövqeyinin ilkin konturları görünəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda icra başçıları özlərinə iş planı tuturmu - Prezident səmərəli iş üçün müstəsna əhəmiyyətli üsulu xatırlatdı...

**İcra başçıları rəhbərlik etdikləri rayon və şəhərlərin sosial-iqtisadi, mədəni-ictimai həyatına fayda vermək üçün öz üzərlərinə düşən vəzifəni dərindən dərk etməli və onun həyata keçirilməsi üçün çalışmalıdırlar.**



Sözsüz ki, hər bir rəhbər şəxsin görəcəyi iş, həyata keçirəcəyi fəaliyyət xüsusi səmərəli iş planı üzərindən olmalıdır. Ölkə başçısı İlham Əliyev Naftalan və Hacıqabul rayonlarına yeni təyin etdiyi icra başçılarını qəbul edərkən onların qarşısına qoyduğu vəzifələrdən biri də bu olub. "...Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır..." - deyə ölkə başçısı yeni təyin etdiyi icra başçılarına öz tövsiyələrini verib.

"Səs" qəzeti və eyniadlı informasiya agentliyinin rəhbəri, politoloq Bəhruz Quliyevin sözlərinə görə, Prezident İlham Əliyev icra başçısı vəzifəsinə təyin etdiyi insanları qəbul edərkən onlar qarşısında çox mühüm vəzifələr qoyur: "Prezidentin icra başçılarını qəbul etməsi və onların qarşısına yeni vəzifələr, tələblər qoyması çox yaxşı haldır. Ona görə ki, cənab Prezident ictimaiyyətin gözü qarşısında yeni təyin etdiyi icra başçılarına tapşırıqlarını verir. Bu, digər tərəfdən, həm də cəmiyyətə bir mesajdır ki, onlar məsuliyyətli olsunlar. Prezident həm də bununla icra başçılarına verdiyi tapşırıqların yerlərdə icra olunmasına ictimai nəzarətin gücləndirilməsini vətəndaşlara tapşırır. Ölkəmizdə ictimai nəzarət mühitinin formalaşması çox vacibdir. İcra başçılarının görəcəkləri işlərlə bağlı iş planı tutması çox mühüm məsələdir. Bilirsiniz ki, hər bir qurumun illik iş planı olur və işlər o plan əsasında görülür. Amma yeni dövrün çağırışları, görülən işlər, hadisələrin dinamikliyi çevik idarəetmə və s. əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir. İcra başçılarının özünün xüsusi iş planının olması ona şərait yaradacaq ki, onlar baş verən hadisələrə, həlli zəruri olan məsələlərə anındaca reaksiya verəcəklər və problemlər yerindəcə həll olunacaq. Baş verənlərə çevik reaksiya verilməsinə, problemlərin həlli istiqamətində anındaca addımların atılmasına zərurət yarandığını cənab Prezident də, cəmiyyət də hiss edir. Bu səbəbdən də cənab Prezidentin verdiyi tapşırıqlar, onun icra başçılarına iş planı tutmaqla bağlı tövsiyəsi həqiqətən də həm icra başçıları üçün idarəetmədə bir istiqamətdir, həm də cəmiyyətə bir mesajdır ki, ölkə başçısı icra başçılarına belə bir tapşırıq verdi".

## *Bəhruz Quliyev: "İcra başçılarının özünün xüsusi iş planının olması ona şərait yaradacaq ki..."*

B.Quliyevin sözlərinə görə, bəzi icra başçıları yerlərdə özlərini cənab Prezidentin etimadına layiq aparmırlar, müxtəlif səhvlər edirlər, davranışları ilə neqativliklərə yol verirlər. "Bu da vətəndaşların gözündən, nəzərindən yayınmır. İndi elə bir dövrdür ki, texniki inkişaf nəticəsində hər kəsin əlində bir telefon var, müşahidə etdiyi neqativlikləri çəkib ictimaiyyətə təqdim edə bilir. Ona görə də həyat özü sürətlənib, dünyanın çağırışları fərqlidir. Eyni zamanda, Azərbaycanda yeni çağırışlar meydana gəlib. Cənab Prezident icra başçılarına konkret, mühüm tapşırıqlar verməklə yerli icra hakimiyyəti başçıları üzərinə birbaşa məsuliyyət qoyur. Ölkəmizdə dinamik inkişaf getdiyi bir çağda, cənab Prezidentin çevik siyasət həyata keçirdiyi və dövlət məmurlarından da çeviklik, dürüstlük tələb etdiyi bir vaxtda icra başçıları da öz məsuliyyətlərini dərk edib fəaliyyətləri ilə tələblərə cavab verməlidirlər" - deyə B.Quliyev qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycanda kadr islahatları davamlı prosesə çevriləcək - yüksək təminat Prezidentdən gəldi

**Kadr islahatları davam etdiriləcək. Bunu Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**



## *Aydın Hüseynov: "Sözügedən islahatların daha da effektli və səmərəli olmasını şərtləndirən faktor kadrların yenilənməsidir"*

Ölkə başçısının sözlərinə görə, son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir: "Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcək".

Prezident qeyd edib ki, rayonlarda mövcud olan bütün problemləri icra başçıları dərindən təhlil etməlidirlər: "Problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz".

Görünən odur ki, kadr islahatları davamlı xarakterli olacaq. Vəzifəsinin öhdəsindən gələ bilməyənlər işdən xaric olunacaq və yerinə digər kadrlar təyin ediləcək. Belə məlum olur ki, kadr islahatları davam etməklə yanaşı, bütün sahələri əhatə edəcək.

*"Aparılan kadr islahatları, ümumilikdə, ölkədə həyata keçirilən islahatları tamamlayır"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, kadr islahatlarının davamlı olması ölkənin dayanıqlı inkişafını təmin edəcək: "Nəzərə almaq lazımdır ki, aparılan islahatlar sistemli xarakterlidir. Çox böyük və geniş fundamental islahatlar həyata keçirilirsə, bu islahatların effekti onda daha böyük olur ki, bununla paralel kadr islahatları da həyata keçirilsin. Çünki müəyyən dönəmdə yeni kadrlara çox böyük ehtiyac yaranır. Biz də görürük ki, ölkə iqtisadiyyatı və bütövlükdə, Azərbaycan çox böyük nailiyyətlər əldə edir. Bunun effektini, müsbət nəticələrini görürük. Sözügedən islahatların daha da effektli və səmərəli olmasını şərtləndirən faktor kadrların yenilənməsidir. Aparılan kadr islahatları, ümumilikdə, ölkədə həyata keçirilən islahatları tamamlayır. Hesab edirəm ki, cənab Prezidentin apardığı islahatlar artıq öz müsbət nəticəsini verir. Bütün bu deyilənlərin fonunda, görünən odur ki, aparılan kadr islahatları davamlı olacaq. Bu da vəzifəyə təyin edilən şəxslərin məsuliyyətini bir az da artıracaq".

***Vidadi ORDAHALLI***

# Prezident məmurların mütləq əksəriyyəti üçün xas olan neqativ işi açıq şəkildə bəyan etdisə...

**Ölkəmizdə başlanan islahatlar bütün istiqamətlərdə uğurlu nəticələr verməkdədir. Xüsusən də kadr islahatlarının həyata keçirilməsi cəmiyyət tərəfindən müsbət qarşılanır. Prezidentin etimad göstərərək müxtəlif vəzifələrə təyin etdiyi şəxslərin, icra başçılarının yeni dövrün bütün çağırışlarına uyğun fəaliyyət göstərməsi əsas tələblərdən biridir.**



## *Əhməd Qəşəmoğlu: "Rayonların icra başçıları vəzifəyə qazanc yeri kimi baxmasalar, rüşvət almasalar, xalqın xidmətində dursalar, həmin rayonlarda işləyən digər vəzifə sahibləri də bu yolu tutarlar"*

Ölkə başçısı da rayonlara icra hakimiyyəti başçıları təyin edərkən onların qarşısına qoyduğu ən başlıca tələb xalqa vicdanla xidmət etmələri ilə bağlıdır.

Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən onların qarşısına çox mühüm vəzifələr qoyub. "...Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz" - deyə ölkə başçısı qeyd edib.

Tanınmış sosioloq-alim, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin icra başçılarını qəbul edərkən etdiyi çıxışa çox diqqətlə qulaq asıb. Ölkə başçısının dövlət məmurları qarşısında yeni tələblər qoyduğunu bildirən Ə.Qəşəmoğlu hesab edir ki, Prezidentin bu tələblərinə hər bir yeni təyin edilən, eləcə də illərdir icra başçısı vəzifəsində çalışanlar böyük əhəmiyyət verməlidirlər. "Prezidentin çıxışını, icra başçıları ilə dialoqunu çox ciddi izlədim. Prezidentin "dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar" fikrini çox bəyəndim. Hesab edirəm ki, Prezident bu fikri söyləməklə bir daha dövlət məmurlarına onların işinin, vəzifə və missiyasının nədən ibarət olduğunu xatırlatdı. Ölkə başçısı yeni vəzifəyə təyin etdiyi məmurları, icra başçılarını qəbul edərkən hər dəfə onların qarşısına vəzifələr qoyur, onlara görməli olduqları işləri xatırladır. Respublikamızda yeni islahatlar başlayıb və ümid edirəm ki, bu islahatlar müsbət nəticələrlə başa çatacaq. Bizim cəmiyyətdə uzun illər dövlət məmurunun obrazı tamam mənfi çalarlala formalaşmışdı. Məlumdur ki, bir çoxu dövlət məmuru vəzifəsinə təyin edildikdən sonra özü üçün var-dövlət yığmağa, evlər, villalar inşa etməyə, böyük varidata sahiblənməyə can atıb və buna da nail olub. Bu da sonda dövlət büdcəsinin talanmasına səbəb olub. Bu gün vəzifədən çıxan adamların bir çoxunun dövlət büdcəsindən çox böyük məbləğdə vəsait mənimsəməsi üzə çıxır, biri 3, o biri 2 milyard, bir başqası isə daha böyük məbləğdə vəsaiti mənimsəyib. Belə hallarla çox rastlaşmışıq. Bu amillər əvvəla ölkə iqtisadiyyatına çox güclü zərər vurub, digər tərəfdən də əhalinin mənəvi sarsıntı keçirməsinə səbəb olub. Bu insanlar xalqın mənafeyini deyil, öz varidatlarını artırmağı düşünüblər. Çox təəssüf ki, Prezidentin vaxtilə etimad göstərib vəzifələrə təyin etdiyi dövlət məmurlarının çoxu xalqın cibini talamaqla məşğul olub".

*"Təəssüf ki, indiyə qədər bəzi dövlət məmurlarının mənfi hərəkətlərinin şahidi olmuşuq"*

Ə.Qəşəmoğlu hesab edir ki, Prezidentin yeni vəzifəyə təyin etdiyi məmurlarıb əvvəlki məmurlardan fərqli olaraq xalqa, dövlətə xidmət edəcəyini, öz şəxsi maraqlarını arxa plana atacağını arzu edən Ə.Qəşəmoğlunun sözlərinə görə, yeni məmurlar Prezidentin mesajından öz məsuliyyətini anlamalıdırlar. "Təəssüf ki, indiyə qədər bəzi dövlət məmurlarının mənfi hərəkətlərinin şahidi olmuşuq. Amma hesab edirəm ki, yeni təyin olunan məmurlar, icra başçıları Prezidentin onlara verdiyi mesajın mahiyyətini, məsuliyyətini dərk etməlidirlər. Çünki xalqın müsbət ovqatda olmasında, yaxşı yaşamasında, problemsiz həyat sürməsində, süründürməçiliyə, bürokratiyaya məruz qalmamasında məmurların göstərdiyi fəaliyyətin rolu var. Azərbaycan müstəqil dövlətdir və bu da onu tələqin edir ki, əhalinin potensialı üzə çıxsın, güzəranı daha yaxşı olsun. Amma indiyə qədər məmurların sərgilədiyi davranışlar buna imkan vermirdi. Rayonların icra başçıları vəzifəyə qazanc yeri kimi baxmasalar, rüşvət almasalar, xalqın xidmətində dursalar, həmin rayonlarda işləyən digər vəzifə sahibləri də bu yolu tutarlar. Amma icra başçısı rüşvət alarsa, vəzifədən pul qazanmaq məqsədilə istifadə edərsə, o birilər də onun kimi edər. Fikrimcə, həyata keçirilən kadr islahatları da buna xidmət edir ki, rüşvətxorluq, özbaşınalıq, vəzifədən sui-istifadə kimi halların kökü kəsilsin. İnanıram ki, buna nail olmaq mümkün olacaq" - deyə Ə.Qəşəmoğlu bildirdi.

***İradə SARIYEVA***

# Struktur - kadr islahatlarının Azərbaycanın beynəlxalq nüfuzuna əsaslı təsiri görünən təzahür kimi...

**"Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir".**



## Elçin Mirzəbəyli: *"Aparılan islahatlar dövlət idarəçiliyinin çevikliyini daha da artırır"*

Məlum olduğu kimi, bunu Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.

Dövlət başçısı bildirib ki, son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir: "Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də var. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz".

O da məlumdur ki, Azərbaycanda aparılan islahatlar dünyada böyük maraqla izlənir. Bir sıra beynəlxalq qurumların hazırladıqları hesabatlarda Azərbaycanın mövqeyinin daha da öncül yerdə olması bunu bir daha sübut edir. Ona görə də ölkədə kadr və struktur islahatlarının aparılması Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, aparılan islahatların Azərbaycanın beynəlxalq imicini möhkəmləndirməsi danılmaz reallıqdır: "Aparılan islahatlar dövlət idarəçiliyinin çevikliyini daha da artırır. Dünyada və regionda baş verən proseslərə daha çevik reaksiya vermək imkanları yaradır. Digər tərəfdən, Azərbaycan beynəlxalq reytinq cədvəllərində son illər kifayət qədər irəliləyib. Bu irəliləyişin də əsas səbəblərindən biri ölkədə aparılan islahatlardır. Bunun nəticəsidir ki, Azərbaycan dünyada 20 ən islahatçı ölkə arasında yer alıb. Bu faktorun özü də ölkənin beynəlxalq imicinin daha da yüksəlməsinə xidmət edir. Gələcəkdə yeni investisiyaların cəlb edilməsinə bu çox müsbət təkan verə bilər. Bunun üçün əlverişli zəmin yaradır. Bu gün dünyada, bütövlükdə, ayrı-ayrılıqda daxili və xarici siyasət anlayışları yoxdur. Bunlar bir-birilə kompleks şəkildə qarşılıqlı zəncirvari formada bağlı olan amillərdir.

*"Bu, beynəlxalq əlaqələrdə, ikitərəfli və çoxtərəfli dövlətlərarası münasibətlərdə mövqelərimizi möhkəmləndirir"*

**Daxili siyasət xarici siyasətə, xarici siyasət də daxili siyasətin elementlərinə təsir göstərir. Bu aspektdən ölkə daxilində həyata keçirilən islahatlar Azərbaycanın xarici siyasətində də özünü büruzə verir. Bu, beynəlxalq əlaqələrdə, ikitərəfli və çoxtərəfli dövlətlərarası münasibətlərdə mövqelərimizi möhkəmləndirir".**

***Vidadi ORDAHALLI***

# Paşinyanın arvadı Akopyan Mehriban xanımın bəyanatından qorxuya düşdüyünü gizlədə bilmədi

**Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan Azərbaycan Prezidentinin xanımı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Dağlıq Qarabağda muğam dinləməyə dəvət edib.**



## Akif Nağı: *"Biz bundan ciddi nəticələr çıxarmalıyıq ki, belə adamların rəhbərlik etdiyi ölkə ilə danışıq aparmaq yersizdir"*

A.Akopyanın sözlərinə görə, buna səbəb bir neçə gün bundan əvvəl Mehriban Əliyevanın "Telegram" şəbəkəsində "Bizim vahid arzumuz "Qarabağ şikəstəsi"ni Qarabağ torpağında birlikdə eşitməkdir!" məzmunlu status yazması olub: "Mən bilirəm, o (Mehriban xanım) bunu təxminən hansı mənada yazıb. Mən indi Mehriban Əliyevanı Qarabağa dəvət etmək istəyirəm və o bizim qonağımız ola bilər. Erməni xalqı və "artsaxlılar" (qarabağlılar) qonağı necə qarşılamaq və hörmət göstərməyi yaxşı bilirlər".

Baş nazirin həyat yoldaşı münaqişənin sülh yolu ilə həll olunmasına da toxunub: "Əgər muğam adı altında onlar müharibə istəyirlərsə, onda bu arzu elə arzu olaraq da qalacaq. Əgər müharibə başlasa, onda muğama qulaq asmaq istədikləri yerlərin sayı da artacaq...".

Əslində, bununla Paşinyanın arvadı həyat yoldaşı kimi siyasi diletant olduğunu sübut edib. Bununla, həmçinin, Ermənistan hakim dairələrinin beynəlxalq vasitəçilərə məhəl qoymadan, sülh prosesinə sadiq olmadıqlarını nümayiş etdirib. Beləliklə, bir daha bəlli olub ki, A.Akopyanın Mehriban xanımın səviyyəsinə çatmasına çox var. Çünki Mehriban xanım Azərbaycanın öz ərazisinə aid olan bir bölgəsində muğama qulaq asmaq istəyini bəyan edib. Bu, normal və qanunidir. Paşinyanın arvadı isə işğalçı olduqlarını və bir xanım kimi işğala haqq qazandırdığını bəyan etmiş olub. Başqa bir ölkənin başçısının həyat yoldaşının nə səlahiyyəti var ki, işğal altında saxlanan əraziyə Azərbaycanın rəsmi şəxsini dəvət etsin? Aydındır ki, Akopyanın bu cür fikirlər səsləndirməsi həm də həyasızlığın son həddidir.

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla Ermənistan rəhbərliyi nə dərəcədə həyasız olduğunu bir daha ortaya qoydu: "Bilirsiniz ki, Mehriban xanım normal olan bir arzunu ifadə edib. Deyib ki, Qarabağda muğam dinləmək istəyir. Paşinyanın həyat yoldaşı isə Azərbaycan hakimiyyətini yeni işğalla hədələyib. Hətta deyib ki, əgər qonaq kimi yox, başqa üsulla gəlmək istəyərlərsə, peşman olarlar. Özü də ən maraqlısı budur ki, A.Akopyan bu fikirləri BMT-nin keçirdiyi bir beynəlxalq tədbirdə, Bratislavada mühüm danışıqların getdiyi bir zamanda səsləndirib. A.Akopyan kimdir ki, Azərbaycanın hakimiyyətində təmsil olunan mühüm vəzifəli şəxslə bu tonda danışır? Bu, Azərbaycanın xoş niyyətlərinə qarşı bu cür bəd niyyətlərlə cavab verməkdir. Bunlar artıq özlərini tam etikadan kənar aparırlar. Biz bundan ciddi nəticələr çıxarmalıyıq ki, belə adamların rəhbərlik etdiyi ölkə ilə danışıq aparmaq yersizdir. Görürsünüzmü, bunlarla həyata keçirilən qarşılıqlı səfərlərin, xalq diplomatiyasının heç bir əhəmiyyəti yoxdur. Jurnalistləri də gəlib burada oldular, gedəndən sonra hədyanlar yazdılar. Bundan sonra qərar verilməlidir ki, onlarla xoş danışmağın heç bir faydası yoxdur. Mən Azərbaycanın Bratislava danışıqlarında ortaya qoyduğu mövqeni çox bəyəndim. Bu konkret mövqedən sonra ermənilər öz paylarını götürməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Düzgün neft siyasəti Azərbaycanı dünya neft bazarındakı çalxalanmalardan sığortalayır...

**Dünya bazarında son günlərdə neftin qiyməti ilə bağlı müəyyən maraqlı proseslər müşahidə olunmaqdadır. Hadisələrin inkişaf axarı bu qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın neft qiyməti ilə bağlı siyasəti, cari ildə olduğu kimi, gələn il ərzində də özünü doğruldacaq.**

Xatırladaq ki, cari ilin dövlət büdcəsində neftin bir barrelinin qiyməti 60 dollardan müəyyən olunmuşdu. İl ərzində isə neftin orta qiyməti 65 dollar təşkil edib. Yəni Azərbaycan neft satışından nəzərdə tutduğundan da çox gəlir əldə edib. Gələn il üçün isə neftin qiyməti 55 dollardan müəyyən olunub. İndidən verilən proqnozlar neftin qiymətinin bu həddən də xeyli yüksək olacağını göstərir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın dünya bazarına çıxararaq satdığı Azeri Light markalı neftin bir barrelinin qiyməti 68 dolları keçib.

Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) yeni toplantısı fonunda isə qiymətlərin daha da artması gözlənir. Xatırladaq ki, həmin toplantıya qeyri-OPEC ölkələri, o cümlədən Azərbaycan da qatılacaq. OPEC-in baş katibi Məhəmməd Barkindonun dəvətilə artıq energetika naziri Pərviz Şahbazov Avstriyanın paytaxtı Vyana şəhərinə səfər edib. Nazir dekabrın 6-da keçiriləcək OPEC və qeyri-OPEC ölkələri nazirlərinin 7-ci görüşündə iştirak edəcək. Məlumata görə, OPEC+ nazirlərinin Vyana görüşündə qlobal neft bazarının vəziyyəti müzakirə ediləcək. OPEC-in dünya iqtisadiyyatı və neft bazarının inkişaf tendensiyalarının təhlili əsasında hazırlanmış təqdimatı və ölkələr üzrə öhdəliklərin icra göstəriciləri nəzərdən keçiriləcək. Qeyd edək ki, 2018-ci il dekabrın 7-də OPEC+ üzrə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı imzalanmış "Əməkdaşlıq Bəyannaməsi"nin müddəti bu ilin 1 iyul tarixindən 2020-ci ilin ilk rübünün sonunadək uzadılıb. İndi gözlənir ki, sözügedən saziş OPEC+ ölkələrinin Vyana görüşündə gələn ilin sonuna kim uzadılçın. Xatırladaq ki, Azərbaycan sazişin uzanmasının tərəfdarıdır.

Ekspertlərə görə də, OPEC+ sazişinin müddəti 2020-ci ilin sonuna qədər uzadılacaq. Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi OPEC və Rusiyanın rəhbərlik etdiyi qeyri-OPEC ölkələrinin neft istehsalının azaldılması üzrə sazişin müddətini artıra biləcəyini qeyd edən ekspertlər, bu baş verərsə, xam neftin qiymətinin bahalaşacağını vurğulayır. Hazırda neft bazarının diqqəti məhz OPEC+ ölkələrinin toplantısına yönəlib. İstənilən halda hesab edilir ki, hasilatla bağlı sazişin müddətinin uzalıdlması və ya yeni azalma barədə qərarın qəbulu neftin qiymətini artıracaq. Bu halda Azərbaycan neftinin qiymətinin 70 dollarıq həddi belə keçməsi tamamilə gözlənilən sayılır. ABŞ-ın "Goldman Sachs" investisiya bankı da baş verənlər fonunda 2020-ci il neftin qiymətinin hər barrel üçün ən azı 65 dollar civarında olacağını proqnozlaşdırır. Bankın mütəxəssisləri hesab edirlər ki, gələn il neftə gündəlik tələbat bu illə müqayisədə 1,2 milyon barrel çox olacaq. Bu da qiymətlərin yüksəlişinə təkan verən əlavə məqamlardan biri sayılır.

Qeyd edilənlər bu qənaətə gəlməyə əsas verir ki, gələn il üçün Azərbaycan neftinin satış qiyməti nəzərdə tutulan həddən yüksək olacaq. Amma buna rəğmən, Azərbaycan digər ssenarilərə də hazırdır. Belə ki, büdcənin neft gəlirlərinin əsas hissəsini Azərbaycan Dövlət Neft Fondundan transfert təşkil edir ki, bu məbləğ də büdcə tərtibi zamanı xarici valyutada deyil, manat ifadəsində müəyyən olunub. Yəni gələn il neftin qiyməti 40 dollara belə enərsə, dövlət büdcəsinin gəlirləri proqnoz göstərici ilə müqayisədə cəmi 1,6% azala bilər. Bu isə o deməkdir ki, hökumət neftin büdcə qiymətini 55 dollar götürməklə özünü tam sığortalayır. Son 15 ildə Azərbaycanda neftin büdcə qiymətinin proqnozlaşdırmaları 5 dollar artım və yaxud azalma ilə müşahidə edilir. İndiyə qədər də bu proqnoz özünü doğruldub. Gələn il üçün də hansısa yenilik gözlənilmir. Əksinə, yuxarıda sadalanan səbəblər neftin qiymətinin yenə nəzərdə tutulduğundan yüksək olacağını göstərir. Moskva İdarəçilik Məktəbinin eksperti Yekaterina Qruşevenko da bildirir ki, ən azı 2020-ci ilin birinci yarısında dünya bazarında neftin qiyməti minimum 65 dollar təşkil edəcək. O, neftin qiymətinin bu həddə olması proqnozunun daha çox geosiyasi səbəblərdən qaynaqlandığını deyib və ABŞ-ın şist neft hasilatının tədricən azalmasının buna təsir göstərməsi ilə izah edib. Bununla yanaşı, OPEC+ ölkələrinin də neftin qiymətlərini saxlamaq üçün kvotaları artırmağa hazır olmasını nəzərə alan ekspert bunların qiymətlərə əsaslı surətdə təsir etdiyini vurğulayır. O, Braziliyanın, qeyri-rəsmi də olsa, OPEC+ üzvü olmağa razılıq verməsinin də neft qiymətlərinə təsirsiz ötüşməyəcəyini bəyan edib. Bütün bunlar bir daha Azərbaycanın neft qiyməti siyasətinin özünü doğrultduğunu göstərir.




Digər tərəfdən nəzərə almaq lazımdır ki, Azərbaycanın neft qiymətlərindən asılılığı da azalır. Bunun ümdə səbəbi qeyri-neft sektorunun dinamik inkişafıdır. Bunu İqtisadi Əməkdaşlıq Təşkilatının Katibliyinin kənd təsərrüfatı və sənaye üzrə direktoru Memduh Unal da xüsusi vurğulayır. Azərbaycan rəhbərliyinin ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün uzun illərdir çox məntiqli siyasət yürütdüyünü vurğulayan Memduh Unal bildirir: "Azərbaycan neftin qiymətindən asılılığın aradan qaldırılması üçün qeyri-neft sektorunun inkişaf etdirilməsinə böyük önəm verir və bu sahədə bir çox uğura nail olub. Kənd təsərrüfatı, turizm sahələri də daxil olmaqla, qeyri-neft sektoruna investisiyalar artırılıb. Bu baxımdan beynəlxalq aləmdə Azərbaycan rəhbərliyinin yürütdüyü siyasət təqdir edilir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında son 15 ildə iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə Azərbaycandır. Bu bizim hesabatlarımızda da öz əksini tapıb".

***Nahid SALAYEV***

# Bratislavadan sonra torpaq güzəştləri barədə söhbətlərə Azərbaycanın sərt və birmənalı yanaşması...

***Hatəm Cabbarlı:** "Bu konkret mövqeni Paşinyan və həyat yoldaşının verdikləri millitarist bəyanatlara tutarlı cavab da saymaq olar"*

**Məlum olduğu kimi, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Bratislavada növbəti görüşü oldu. Görüşdən sonra verilən açıqlamalardan belə nəticəni çıxarmaq olar ki, konkret və prinsipial bir nəticə əldə olunmayıb. XİN rəhbərləri bildirdilər ki, danışıqların gələcəkdə də davam etdirilməsinə dair razılığa gəlinib.**

Həmin görüş ərəfəsində Lavrovun Bakıya səfər etməsi və verdiyi açıqlamada tərəflərin qarşılıqlı kompromisə getmələrinin vacibliyinə dair toxunduğu fikirlər, eləcə də Elmar Məmmədyarovun Bratislavada predmetli danışıqlar aparılacağına dair verdiyi açıqlama fərqli mülahizələrin ortaya çıxmasına səbəb olmuşdu. Daxili rəydə fikir bildirən bəzi ekspertlər hesab edirdilər ki, Lavrovun dediyi qarşılıqlı güzəştlər yalnız 5 rayonun ətrafında danışıqların aparılmasını nəzərdə tutur. Ancaq Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü ərəfəsi Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyinin ATƏT Xarici İşlər Nazirləri Şurasının Bratislavada 4 dekabrda işinə başlayan 26-cı illik görüşü ərəfəsində Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan dövlətinin mövqeyini təqdim etməsindən sonra məlum oldu ki, ölkəmiz daha sərt və prinsipial yanaşma ortaya qoyub.

Nümayəndəliyin yaydığı məlumatda Azərbaycanın münaqişənin ATƏT-in Minsk Qrupu formatında siyasi yolla həllinə sadiq qaldığı ifadə olunur. Qeyd edilir ki, münaqişənin həlli üçün hüquqi və siyasi əsaslar BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrində, həmçinin, ATƏT-in müvafiq sənədlərində və qərarlarında təsbit edilib.

Məlumatda daha sonra bildirilir ki, konfliktin həlli yalnız "Helsinki Yekun Aktı"nda təsbit olunmuş beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə tam hörmət əsasında mümkündür. Azərbaycan münaqişənin həllində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, xüsusən 1994-cü ildə Budapeşt sammitinin qərarlarına söykənən mərhələli yanaşmaya sadiqdir.

Daha sonra qeyd olunur ki, ilk addım münaqişənin fəsadlarının aradan qaldırılmasıdır: "Bu, Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsinin və Azərbaycanın digər işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması, zorla didərgin düşmüş azərbaycanlı əhalinin təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtması və bu ərazilərdəki əmlakların onlara qaytarılması, qarşılıqlı istifadə və bu ərazilərin iqtisadi inkişafı üçün bölgədə bütün kommunikasiyaların açılması ilə nəticələnəcək".

Yekunda bildirilir ki, həll prosesinin növbəti mərhələsi Azərbaycan Konstitusiyası və qanunvericiliyinə uyğun olaraq, Azərbaycan daxilində bölgənin əhalisi üçün özünüidarəetmə statusunun müəyyənləşdirilməsidir. "Bu status bölgədəki erməni və azərbaycanlı icmaların dinc yanaşı yaşamasını təmin edəcək və bütün insan hüquqları və əsas azadlıqlarının bərabər əsasda və ayrıseçkilik olmadan tam təmin edilməsinə imkan verəcək. Statusun müəyyənləşdirilməsi dinc şəraitdə, qanuni proses yolu ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi əhalisinin, yeni erməni və azərbaycanlı icmalarının birbaşa, tam və bərabər iştirakı ilə və yalnız Azərbaycan hökuməti ilə qarşılıqlı əlaqədə qanuni və demokratik proses çərçivəsində başlayacaq. Azərbaycan bu çərçivədən kənarda münaqişənin heç bir siyasi həllini düşünmür və bu anlayışa əsaslanan həll prosesində iştirak edir. Münaqişənin siyasi həlli hərtərəfli iqtisadi inkişaf və qarşılıqlı faydalı əməkdaşlıq üçün əlverişli şərait yaradacaq".




Bu bəyanatdan məlum olur ki, Azərbaycan buna qədər olan prinsipial mövqeyindən bir addım da geriyə çəkilməyib və ölkəmizin ərazi bütövlüyü heç bir halda müzakirə mövzusu olmayacaq.

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan indiyə qədər olan danışıqlarda konstruktiv olmayıb: "2018-ci ildə Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra tərəflərin bir masa ətrafında danışıqlar aparmasına dair nəticələri təhlil etsək bu nəticəyə gələ bilərik ki, Ermənistan hökuməti sülhə sayğı nümayiş etdirməyib. Əksinə, Paşinyan öz millitarist bəyanatları ilə yadda qalıb. Bratislava görüşündən əvvəl Ermənistan XİN rəhbəri verdiyi bəyanatda onların mənafeyinə cavab verən paket həlldən bəhs etmişdi. Amma müzakirələrin tarixinə diqqət etdiyimiz zaman məlum olur ki, Azərbaycan paket həll variantını qəbul etməyib. Azərbaycan məntiqi olaraq mərhələləi həll variantına üstünlük verir. Azərbaycan Dağlıq Qarabağ probleminin öz ərazi bütövlüyü çərçivəsində həllinin tapılmasını istəyir. Son 25-30 ildə hər zaman bu mövqedən çıxış edib. Hər iki ölkənin XİN rəhbərinin görüşündən onsuz da ciddi nəticələr gözlənilmirdi. Çünki Ermənistan tərəfi buna hazır olmadığını nümayiş etdirir. Bunun bütün əlamətləri özünü Paşinyanın səsləndirdiyi bəyanatlarda göstərir.

Görüşdən bir gün əvvəl isə Ermənistan Baş nazirinin həyat yoldaşı Anna Akopyan bütün əndazəni aşaraq Mehriban xanım Əliyevanı Qarabağa muğama qulaq asmağa dəvət etdi. Həmin bəyanatda diqqəti başqa detal da cəlb etdi. O deyir ki, siz müharibə yolunu seçsəniz, nəinki Qarabağda, bundan sonra itirəcəyiniz başqa rayonlarda da muğam dinləmə həsrətində olacaqsınız.

**Bu, birbaşa danışıqlara kölgə salan mövqedir. Eyni zamanda, Ermənistanın Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində heç bir addım atmaq niyyətində olmadığını göstərir. Əslində, Akopyanın verdiyi bəyanat psixoloji mahiyyət daşıyırdı. Azərbaycan dəfələrlə verdiyi bəyanatlara sadiqlik nümayiş etdirib. Bu konkret mövqeni Paşinyan və həyat yoldaşının verdikləri millitarist bəyanatlara tutarlı cavab da saymaq olar".**

*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Lavrovun Bakı səfəri, ardınca Bratislava görüşü... Ermənistanı qorxu bürüdü - "Bakı istəyinə nail olmasa savaşa başlayacaq"

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyilə Bratislavada baş tutan və 3 saat yarımdan çox davam edən görüşü Dağlıq Qarabağ münaqişəsinə dair sülh danışıqlarının hələ davam etdiriləcəyini göstərir. Belə bəlli olur ki, məsələnin sülh müstəvisində çözümünə ümidlər tam tükənməyib.**

Məlumata görə, Bratislava danışıqlarında tərəflər münaqişənin həlli ilə bağlı mövcud vəziyyəti və onun gələcəkdə sülh yolu ilə həlli istiqamətləri ətrafında müzakirələr aparıb. Eyni zamanda, nazirlər danışıqların davam etdirilməsi və gələn ilin əvvəllərində növbəti görüşün keçirilməsi ilə bağlı razılığa gəliblər. Burada bir məqamı xüsusi vurğulmaq lazım gəlir ki, nazirlərin görüşü fonunda Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair ölkəmizin mövqeyini təqdim edib. Burada Azərbaycanın münaqişənin ATƏT-in Minsk Qrupu formatında siyasi yolla həllinə sadiq qaldığı ifadə olunub. Qeyd edilib ki, münaqişənin həlli üçün hüquqi və siyasi əsaslar BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrində, həmçinin ATƏT-in müvafiq sənədlərində və qərarlarında təsbit edilib.

Məlumatda daha sonra bildirilir ki, münaqişənin həlli yalnız Helsinki Yekun Aktında təsbit olunmuş beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə tam hörmət əsasında mümkündür. Azərbaycan münaqişənin həllində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, xüsusən 1994-cü ildə Budapeşt Sammitinin qərarlarına söykənən mərhələli yanaşmaya sadiqdir. İlk addım isə münaqişənin fəsadlarının aradan qaldırılmasıdır. Beləliklə, bu, Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsindən və Azərbaycanın digər işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması, zorla didərgin düşmüş azərbaycanlı əhalinin təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtması və bu ərazilərdəki əmlakların onlara qaytarılması, qarşılıqlı istifadə və bu ərazilərin iqtisadi inkişafı üçün bölgədə bütün kommunikasiyaların açılması ilə nəticələnəcək. Yekunda bildirilib ki, həll prosesinin növbəti mərhələsi Azərbaycan Konstitusiyası və qanunvericiliyinə uyğun olaraq, Azərbaycanın daxilində Dağlıq Qarabağ bölgəsinin əhalisi üçün özünüidarəetmə statusunun müəyyənləşdirilməsidir. Bu status bölgədəki erməni və azərbaycanlı icmaların dinc yanaşı yaşamasını təmin edəcək və bütün insan hüquqları və əsas azadlıqlarının bərabər əsasda və ayrıseçkilik olmadan tam təmin edilməsinə imkan verəcək. Statusun müəyyənləşdirilməsi dinc şəraitdə, qanuni proses yolu ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi əhalisinin, yəni erməni və azərbaycanlı icmalarının birbaşa, tam və bərabər iştirakı ilə və yalnız Azərbaycan hökuməti ilə qarşılıqlı əlaqədə olaraq qanuni və demokratik proses çərçivəsində baş tutacaq. Azərbaycan bu çərçivədən kənarda münaqişənin heç bir siyasi həllini düşünmür və bu anlayışa əsaslanan həll prosesində iştirak edir. Münaqişənin siyasi həlli hərtərəfli iqtisadi inkişaf və qarşılıqlı faydalı əməkdaşlıq üçün əlverişli şərait yaradacaq.

Ekspertlər hesab edir ki, bu mövqenin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü fonunda yenidən diqqətə çatdırılması bir sıra parametrlər baxımından olduqca mühümdür. Əvvəla, Azərbaycan bununla həm dünya ictimaiyyətinə, həm də Ermənistana Qarabağ məsələsinin həllini hansı rakursdan gördüyünü bir daha xatırlatmış oldu. Əks təqdirdə Azərbaycan nəticəsiz danışıqlar aparmaq niyyətində olmadığını da bununla nümayiş etdirir. Məhz bunlar fonunda nazirlərin danışıqları və onun davam etdirilməsi barədə razılıq Azərbaycanın mövqeyinin nəzərə alındığını deməyə əsas verir. Ən azı o baxımdan ki, bu olmasaydı, Bakı danışıqları da davam etdirməzdi. Bunu Ermənistan parlamentinin sabiq deputatı Armen Aşotyan da etiraf edir:

"Azərbaycan tərəfi yenidən öz ampluasındadır. Mərhələli həll, substantiv danışıqlar mövqeyində israrlıdır. Bakı danışıqların məhz bu fonda baş tutmasını mümkün sayır. Danışıqların davam etdirilməsi isə Bakının mövqeyinin nəzərə alınması anlamına gəlir. Burada Rusiyanın da mövqeyinin Azərbaycana yaxın olması görünür. Bunu həm də o təsdiqlədi ki, Paşinyanın KTMT ölkələrinin Azərbaycana silah satışını dayandırması ilə bağlı bəyanatına Moskva əhəmiyyət vermədi. Lavrovun Bakıda səsləndirdiyi fikrindən məlum oldu ki, bu əməkdaşlıq davam etdiriləcək, Məmmədyarov isə yeni silahlanma sövdələşmələrinə işarə etdi. Münaqişənin həllinin hazırkı mərhələsində rəsmi Moskvanın birinci skripka rolunu öz üzərinə götürməsi görünəndir. Bu isə danışıqlar prosesinə də təsirsiz ötüşməyərək, indiki halda Azərbaycanın mövqeyini gücləndirir".

Digər erməni politoloq Suren Sarkisyan da Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini ifadə edən sənədin yenidən Bratislavada diqqət mərkəzinə gətirilməsini təsadüfi saymır. O qeyd edib ki, Azərbaycanın təqdim etdiyi prinsiplər Ermənistanın milli maraqlarına tamamilə zidd olsa da, Bakı onun qəbulu istiqamətində fəaliyyətini genişləndirir: "Azərbaycan Qarabağın Azərbaycanın ərazi bütövlüyünün komponenti olması istisna olmaqla hər hansı status vermək ətrafında danışıqlar aparmayacaq. Söhbət təkcə 7 rayondan, həmçinin artıq əsas Qarabağın ərazisindən gedir. Bu məsələdə Azərbaycana verilən dəstəyin artması da faktdır. Bakı istəyinə nail olmasa savaşa başlayacaq. Təsadüfi deyil ki, Azərbaycan tərəfi danışıqlarla yanaşı, həm də açıq şəkildə müharibə əməliyyatları vasitəsilə Qarabağı qaytarmaq haqqında danışır".

Baş verənləri dəyərləndirən digər ekspertlər də Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsindən başqa yolun olmadığına əmindirlər. Bu prosesdə indi Qafqazda sabitliyin bərqərar olmasında maraqlı olan ölkələr, o cümlədən Rusiya da istəklidir. Çünki burada proseslərin qeyri-müəyyənliyə yuvarlanması Moskva üçün əlavə problemlər yarada bilər. Kreml isə bunu istəmir. Qeyd edilən fonda Lavrovun Bakıda olarkən səsləndirdiyi fikirlər də təsadüf sayılmır. Burada o qeyd etmişdi: "Rusiya və Azərbaycan hesab edir ki, Dağlıq Qarabağ probleminin həlli məsələsində kompromis tapmaq imkanı var. Kompromisə nail olmaq imkanları mövcuddur. İş asan deyil. Bu münaqişə MDB məkanında ən uzunmüddətlilərdən biridir. Bugünkü və dünənki təmaslar bizə irəli hərəkət etməyə necə səy göstərməyi daha yaxşı başa düşməyə imkan verdi. Ümid edirəm ki, nəticələr olacaq".

Ermənistan parlamentinin deputatı Arman Babacanyan da bu xüsusda bildirir ki, Rusiyanın yanaşması İrəvan üçün müsbət nəsə vəd etmir: "Lavrovun Bakı və İrəvanda verdiyi bəyanatlar, həmçinin Azərbaycan və Ermənistan nümayəndələrinin qarşılıqlı səfərləri nizamlanma prosesində həyata keçirilən hər hansı yerdəyişmələr haqqında sübut verir. Maraqlıdır ki, Rusiya xarici işlər naziri tərəfindən bu cür bəyanatlar xarici işlər nazirlərinin görüşündən bir neçə saat əvvəl səslənir. Lavrovun dekabrın 4-də baş tutan görüş barədə dedikləri məsələnin həlli istiqamətində nələrinsə olduğunu göstərir. Özü də o şəraitdə ki, Azərbaycan arxayınlıqla Qarabağ münaqişəsinin çözümünü öz ərazi bütövlüyü çərçivəsində gördüyünü açıqlayır. Deməli, burada mövqe itirən tərəf Ermənistandır".

Yaranmış vəziyyətdə İrəvanın Qərbə olan ümidləri də hansısa nəticə vermir. Xüsusən də Ermənistanın İranla işbirliyi ABŞ-da ciddi narazılıqla qarşılanır. Elə Suren Sarkisyanın da sözlərinə görə, ABŞ ümid edirdi ki, Ermənistanda baş verənlər Ermənistan-ABŞ münasibətlərinə müsbət təsir göstərəcək:"Amma İrəvanın gedişləri üzündən iki ölkənin münasibətlərində açılan pəncərə artıq qapadılıb. ABŞ-ın prioritetləri sırasında artıq Ermənistan yoxdur. Amma Azərbaycanla bağlı fərqli vəziyyət hökm sürür. ABŞ-ın bu ölkə ilə əməkdaşlığını daha da dərinləşdirdiyini görürük".

İndi həm Rusiyanın, həm də Qərbin dəstəyindən tədricən məhrum olan Ermənistanın regionda mövqelərinin daha zəif hala gəlməsi qaçılmaz sayılır. Məhz bu da Qarabağ münaqişəsinin həllini tezləşdirə biləcək faktorlardan sayılır. Çünki Ermənistanın bu münaqişənin həllini indiyə qədər uzatması yalnız xaricdən aldığı dəstək sayəsində mümkün olub. Amma artıq bu dəstək tədricən aradan qalxır və belə şəraitdə Azərbaycan üçün Qarabağ münaqişəsinin həlli daha asan hala gəlir. Bu halda danışıqlar nəticə verməsə, ABŞ və Rusiya kimi ölkələr Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi üçün hərbi əmliyyatlara başlamasına hansısa maneə yaratmayacaq. Suren Sarkisyan da belə vəziyyətdən Azərbaycanın istifadə edə biləcəyindən narahatlıq ifadə edib:

"Azərbaycan Qarabağ məsələsini hərb yolu ilə həll edəcəyini gizlətmir. Bunun qarşısını alacaq qüvvə də yoxdur". Beləliklə, yaranmış vəziyyət Qarabağ məsəəlsində yaxın tezlikdə müəyyən yeniliklərin olacağını istisna etmir. Bratislava danışıqlarından belə bəlli olur ki, Azərbaycan məsələnin dinc müstəvidə tənzimlənməsində maraqlıdır və bunun üçün Ermənistana da müəyyən şans verib. İndi Ermənistan bu şansdan düzgün istifadə etsə, o da Qarabağ məsələsinin həllindən uduşlu çıxar. Əks halda problemin hərbi həlli Ermənistanın çöküşünü daha dinamik hala gətirəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycanda bəzi müxalif siyasi partiya və bir qrup ictimai-siyasi fəal növbədənkənar keçirilməsi gözlənən parlament seçkisinə qatılmaq və onu boykot etmək dilemması qarşısında qalıb. Müsavat Partiyasının qərargahında keçirilən "dəyirmi masa"da müxalifət təmsilçiləri bu suala cavab axtarıblar və belə məlum olub ki, onların əksəriyyəti ənənəvi mövqeləri olan boykotun üzərində dayanır.**

# Radikal müxalifət illərin ən uğursuz boykot taktikasından bu dəfə də yaxa qurtara bilmədi

## *Elşən Həsənov: "Seçki biabırçılığından yaxa qurtarmaq üçün bu vasitəyə əl atırlar"*




Əksər radikallar seçkidə iştirakdan imtinanın səbəbini guya ədalətli seçki mühitinin olmaması ilə izah edir. Müsavat başqanı Arif Hacılı deyib ki, hazırkı şərtlərdə seçkilərdə iştirak çox çətindir, amma seçki ilə bağlı qərarı Müsavat Partiyası şənbə günü verəcək: "Seçki komissiyaları tam şəkildə hakimiyyətin nəzarəti altındadır. Təbii ki, belə bir şəraitdə, hər hansı bir dəyişiklik baş verməsə, seçkilərin taleyi, onun nəticələrinin necə olacağı əvvəlcədən məlumdur".

Keçmiş səhiyyə naziri Əli İnsanov seçkilərdə iştirakla bağlı deyib ki, seçkilərə az bir müddət qalsa da, ifadə azadlığı təmin olunmayıb.

Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Seymur Həzi deyib ki, heç olmasa Azərbaycan xalqının inamını cücərdən seçki mühiti olsun ki, biz orada iştirak edək.

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirib ki, o, əvvəlki illərdə parlament seçkilərində iştirak edib və parlamentdə təmsil olunub, amma bu, heç nəyi dəyişməyib. Göründüyü kimi, radikal dairələr seçkidə iştirakla bağlı bəhanə sayıla biləcək şərtlər irəli sürürlər. Əsasən də seçkini boykot edəcəklərini bəyan edirlər.

Göründüyü kimi, radikal müxalifət illərin ən uğursuz boykot taktikasından bu dəfə də yaxa qurtara bilmədi. Bunun səbəbi nə ilə bağlıdır?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, bu taktikanın bir bəhanə olduğu qənaətindədir: "Əvvəl Milli Şura bəyanat verdi. Həmin bəyanatda açıq boykota gedəcəklərinə işarə vardı. İş burasındadır ki, radikal dairələr seçkidə iştirakını əvvəlcədən bəyan edən siyasi partiyaları da az qala satqınlıqda ittiham edirlər. Özləri isə seçkidə iştirak etməyəcəklərini konkret bəyan etmirlər. Sanki bir bazarlığa çıxıblar. Belə siyasət olmur. Onlara sual vermək lazımdır, seçki mühiti sizi qane etmirdisə, niyə məhz MSK-ya həmin Məzahir Pənahovun rəhbərlik etdiyi dönəmdə seçkilərdə iştirak edibsiniz? Başqa bir sual da verə bilərəm: başqa seçkiləri boykot etməyinizlə hansı nəticəni əldə etdiniz? Bunların boykot etdiyi seçkilərdən sonra legitim parlament formalaşıb və fəaliyyət göstərib. Mən qəbul edirəm ki, boykot bir taktikadır və siyasətdə mövcuddur. Ancaq bu, şantaj vasitəsi deyil. Boykota o qüvvələr gedir ki, seçki prosesini poza bilsin. Yəni onu edən qüvvə tərəfdarlarına seçkidə iştirak etməməklə bağlı çağırış edir. Onların da sayı o qədər olur ki, sandıq başına gedən tapılmır. Gəlin düzünü danışaq: bizdə bu gücdə olan bir siyasi qüvvə varmı? Boykotla bağlı başqa taktika budur ki, seçkinin nəticələri tanınsa belə, insanları meydana səsləyib, bunu xalq gücü ilə əngəlləyirlər. Uzun illərin boykot taktikasından bunun edilə bilmədiyini görmüşük. Onda isə radikal dairələr niyə boykotu seçirlər? Səbəb məlumdur, seçki biabırçılığından yaxa qurtarmaq üçün bu vasitəyə əl atırlar. Bununla da özlərini gündəmdə saxlamaqla, xalqın iradəsinə zidd gedirlər. Çünki onların tərəfdarları həmin təsisatlardan nəticə gözləyirlər. Bunlar isə baş girələyirlər. Biz seçkidə iştirak edəcəyik. Hətta fikrimiz var ki, seçkiyə sol təmayüllü partiyaların bloku şəklində qatılaq".

*"Fikrimiz var ki, seçkiyə sol təmayüllü partiyaların bloku şəklində qatılaq"*

**Məhəmmədəli QƏRİBLİ**

**Dekabrın 23-nə təyin olunan bələdiyyə seçkiləri ilə əlaqədar namizədlərin qeydə alınması prosesi başa çatıb. Məlum olub ki, bu dəfəki bələdiyyə seçkilərində namizəd kimi iştirak edənlərin siyahısında həmkarlarımızın da sayı az deyil.**

# Bir neçə gənc jurnalistin namizədliyi qeydə alınıb - bələdiyyə seçkilərində qalib olarlarsa...

## *Sevda Zülfüqarlı: "Mən xüsusilə də bir neçə türk şəhəri ilə ölkəmizin şəhərlərinin qardaşlaşması istiqamətində çalışmışam"*

## *Famil Fərhadoğlu: "Ölkə başçısının bu istiqamətdə mesajı prosesə qoşulmağım üçün vəsilə oldu"*



Namizədliyi qeydə alınanların siyahısında biz - Famil Fərhadoğlu, Rufik İsmayılov, Fərid Şahbazlı, Sevda Zülfüqarlı kimi jurnalistlərin adına rast gəlirik. Maraqlıdır gənc jurnalistlər bu prosesdə iştiraka hansı maraq cəlb edib və onların gözləntiləri nədir?

Xətai rayonu 36 saylı seçki dairəsindən bələdiyyə seçkilərinə namizədliyi qeydə alınan Sevda Zülfüqarlı bizimlə söhbətində bildirdi ki, onun jurnalist fəaliyyəti əsasən qardaş Türkiyə ilə informasiya mübadiləsi üzərində qurulub: "Uzun müddətdir ki, Türkiyə ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi istiqamətində çalışmışam. Məndə bələdiyyələrdə iştiraka ən böyük həvəsi qardaş Türkiyədə bələdiyyələrin fəaliyyətinə verilən önəm oyatdı. Orada bələdiyyə sədrləri çox böyük işlər görə bilirlər. Mən xüsusilə də bir neçə türk şəhəri ilə ölkəmizin şəhərlərinin qardaşlaşması istiqamətində çalışmışam. Bu xüsusda Sivasla bizin Gəncəmiz arasında yaradılan qardaşlaşma əlaqəsini xüsusi qeyd edə bilərəm. Mən düşünürəm ki, bir gənc olaraq bələdiyyə sədri kimi ölkəmizin inkişafına, namizəd olduğum ərazidə yaşayan əhalinin sosial problemlərinin həllinə böyük dəstək göstərə bilərəm. Sədr yox, üzv seçilərəmsə də bu yöndə ciddi fəaliyyətim ola bilər"

32 saylı Suraxanı üçüncü seçki dairəsindən namizədliyi qeydə alınan jurnalist Famil Fərhadoğlu isə bildirdi ki, son zamanlar ölkədə aparılan islahatlar onu seçkilərə qatılmağa sövq edib: "1988-ci ildə ailəlikcə Qərbi Azərbaycandan deportasiya olunandan sonra Suraxanı rayonunun Əmircan qəsəbəsində köçmüşük. Mənim uşaqlığım, gəncliyim bu qəsəbə ilə bağlıdır. Mən Əmircan qəsəbəsində yerləşən 114 saylı orta məktəbdə 11 il təhsil almışam. Burada yaşayan insanlar arasında xoş, doğma münasibət var. Qədim Bakı kəndi olan bu qəsəbədə insanlar bir-birini tanıyırlar. Sakinlərin böyük əksəriyyəti mənim jurnalist fəaliyyətimlə tanışdırlar. Bilirlər ki, televiziyada sosial layihələrdə çalışdığım dönəmdə, istərsə də yazılı mətbuatda insanların problemlərini gündəmə gətirmişəm. Bu sosial məsələlərin ictimailəşdirilib, həll edilməsində əlimdən gələni etmişəm.

Son dövrlər Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün dövlət və xalqın maraqları nəzərə alınmaqla mühüm addımlar atılır. Dövlət idarəetmə sistemində son dövrlər həyata keçirilən struktur islahatları çərçivəsində gənc kadrlara etimad göstərilir. Ölkə başçısının bu istiqamətdə mesajı prosesə qoşulmağım üçün vəsilə oldu. Mən də cənab Prezidentin gəncləşdirmə siyasəti aparılacağını açıqladığı çıxışını müsbət qarşıladım. Qərara aldım ki, dekabrın 23-ü ölkədə keçiriləcək bələdiyyə seçkilərində namizəd kimi iştirak edim. Çünki mən də bir gənc kimi ölkəmizin inkişafı ilə bağlı cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın atdığı addımlara dəstək vermək arzusundayam".

**Məhəmmədəli QƏRİBLİ**

**ABŞ və Fransa arasında baş verən proseslərin yaxın tezlikdə dünya iqtisadiyyatına da öz təsirini göstərib ticarət savaşını daha da dərinləşdirəcəyinə dair verilən proqnozlar çoxalır. Bu vəziyyətdə baş verənlərin təsir dairəsinin necə olacağı digər ölkələr, o cümlədən Azərbaycan tərəfindən də diqqətlə izlənməkdədir.**

# ABŞ və AB arasında qızışan iqtisadi qarşıdurma manatı dollar və avro qarşısında daha güclü mövqeyə çıxarır



Hesab olunur ki, ABŞ və Fransa arasında iqtisadi qarşıdurma böyüsə, buna Avropa İttifaqı da gəlb edilsə, Azərbaycan bunun təsirlərini ilk növbədə maliyyə sektorunda hiss edəcək. Ən azı o fonda ki, dollar və avronun dəyərində müəyyən dəyişikliklərin olması qaçılmazdır. Hadisələrin məhz bu səpkidə inkişaf ehtimalı isə getdikcə artır.

Məsələ burasındadır ki, Birləşmiş Ştatlar və Fransa rəqəmsal vergi haqqında mübahisə çərçivəsində artıq bir-birini yeni sanksiyalar, gömrük rüsumları ilə hədələyib. Məlumata əsasən, söhbət Fransanın informasiya texnologiyaları sahəsində nəhəng şirkətlərin gəlirlərinə tətbiq etdiyi vergidən gedir. Buna cavab olaraq Birləşmiş Ştatlar Fransa məhsullarına 100%-lik gömrük rüsumları tətbiq edəcəyini bildirir. Rəsmi Paris isə, öz növbəsində, belə bir qərar tətbiq olunacağı təqdirdə buna Avropa İttifaqı çərçivəsində qətiyyətlə cavab veriləcəyinə söz verib. Fransa prezidenti Emmanuel Makron bildirib: "Çox təəssüf ki, Biarritsdə baş tutan "Yeddilik" sammiti çərçivəsində əldə olunan razılaşmaları reallaşdıra bilmədik. Avropa və ABŞ arasında vergilərin İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı çərçivəsində həlli olduqca maraqlıdır. Bu, məhdudiyyətsiz çoxtərəfli vergi olmalıdır. Rəqəmsal sektorda vergilərin tətbiqi hər bir konkret ölkənin real sektoruna uyğun olmalıdır. Qarşıdakı həftələrdə baş tutacaq danışıqların nə ilə nəticələnəcəyinə baxaq. Lakin istənilən halda cavab ümumi, Avropa səviyyəsində veriləcək. Çünki söhbət tək Fransadan yox, Avropadan gedir". Xatırladaq ki, hələ bu il iyulun 11-də Fransa Senatı rəqəmsal xidmətlər göstərən iri kompaniyaların vergi ödəmələri barədə qanun layihəsini qəbul edib. Qanun dövriyyəsi dünyada 750 milyon avronu və Fransada 25 milyon avronu keçən onlayn reklam, internet ticarəti və buna bənzər fəaliyyətlə məşğul olan bütün kompaniyalara aiddir. Yaranmış vəziyyətdə ABŞ-ın "Google", "Apple", "Facebook" və "Amazon" kimi texnologiya nəhəngləri Fransada böyük miqdarda vergi ödəməli olacaq. Fransada yeni vergilər ictimai müzakirələr başa çatdıqdan sonra gələn ilin əvvəlindən tətbiq ediləcək. ABŞ isə bunu qəbul etmir. ABŞ prezident Donald Tramp qeyd edir: "Hazırkı vəziyyət ədalətli deyil. Çünki Birləşmiş Ştatlar Avropa ilə ticarətdə milyardlarla pul, daha dəqiqi, hər il 150 milyard dollar itirir. Biz bundan sonra işlərin bu formada getməsini istəmirik. Biz razılaşma imzalaya və ya qarşı-qarşıya gələ bilərik". Artıq o da bəlli olub ki, ABŞ Fransa istehsalı olan 2,4 milyard dollar dəyərində məhsula əlavə vergi tətbiq etməyi planlaşdırır. ABŞ-ın Ticarət Nümayəndəliyinin rəhbəri Robert Laythayzer qeyd edir ki, Fransanın rəqəmsal xidmət vergisi ABŞ şirkətlərinə qarşı ayrıseçkilikdir:"ABŞ-ın nümayəndə aparatı 1974-cü ilin ticarət haqqında qanununun 301-ci maddəsi çərçivəsində araşdırmanın birinci mərhələsini qurtarıb və bu nəticəyə gəldi ki, Fransa rəqəmli vergi ilə ABŞ şirkətlərinə qarşı ayrıseçkilik edir". Əlavə rüsumların tətbiq oluna biləcəyi məhsullara, Fransada istehsal olunan süd məhsulları, o cümlədən pendir, eləcə də şampan şərabları, kosmetik vasitələr, çantalar, çini qablar daxildir. Fransanın da buna qarşı növbəti cavabı özünü çox gözlətməyib. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Le Mer bildirib ki, Avropa İttifaqı ABŞ-ın fransız mallarına tətbiq edəcəyi mümkün rüsumlara cavab verməyə hazırdır: "Fransaya qarşı yeni sanksiyalar qəbuledilməzdir. Bu qərar müttəfiqlik ruhu ilə verilməyib. ABŞ sanksiya tətbiq edəcəyi təqdirdə Avropa İttifaqının buna sərt cavab verəcəyindən əmin olmaq üçün Avropa Komissiyasının nümayəndələri ilə bu məsələni müzakirə etmişik".

Beləliklə, baş verənlər Avropa İttifaqının da iştirakı ilə ABŞ-la yeni ticarət müharibəsinin başlandığın göstərir. O da bəllidir ki, Çinin və Rusiyanın da ABŞ-la eyni müstəvidə savaşı davam edir. Məhz bu fonda mövqelərini və ixrac qabiliyyətini qorumaq üçün indi ABŞ dolları daha da ucuzlaşdırmağı düşünür. Xatırladaq ki, Donald Tramp ABŞ-ın Federal Ehtiyat Sistemini uçot dərəcəsini azaltmağa çağırır. Onun fikrincə, ABŞ dollarının məzənnəsinin güclü olması yerli istehsalçılara və iqtisadi artıma zərbə vurur. Tramp uçot dərəcəsinin mənfi həddə keçirilməsini istəyir.

Hesab edilir ki, belə olarsa, Avropa İttifaqı da avronun indiki ilə müqayisədə daha da ucuzlaşmasına çalışacaq. Bax bu hal avro və dolların manata nisbətdə də əhəmiyyətli dərəcədə dəyər itirməsinə rəvac verəcək.

Digər tərəfdən faktdır ki, dolların ucuzlaşması həm də neftin müəyyən qədər bahalaşmasına gətirib çıxarır. Federal Ehtiyat Sistemi Trampın təzyiqi ilə uçot dərəcəsini azaldaraq dolların məzənnəsini zəiflətsə, bu, nefti daha da bahalaşdıracaq. Sonuncu isə manatın məzənnəsinə dolayı yolla təsir edəcək. Eyni fikirləri avro barədə də demək olar.

Belə şəraitdə hökumət və Mərkəzi Bank iqtisadiyyata müdaxilə etməsə, bu hal Azərbaycan məhsullarını dünya bazarlarında bahalaşmasına gətirib çıxara bilər. Elə bu səbəbdən hesab edilir ki, hökumət qeyri-neft sektoru üzrə ixracı qorumaq üçün dolların, avronun manata nisbətini indiki həddə saxlamağa çalışacaq. Amma dünyada baş verənlərin də manatın güclənməsi istiqamətində təzyiqləri artırdığı aydın görünür. Bu səbəbdən manatın indiki məzənnə həddini qorumaq heç də asan məsələ sayılmır.

***Ramil QULİYEV***

**"İcra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyalar cəlb etməlidirlər ki, yerli istehsal artsın, işsizlik daim aşağı səviyyədə olsun".**



# İcra başçıları üçün yeni sınaq - yerli və xarici biznesmenlərlə iş qurmağı kimlər bacara biləcək...

***Pərviz Heydərov:** "Dövlət başçısı tərəfindən təyin olunan icra başçılarından tutmuş, bələdiyyələrə qədər regionlara investisiyaların cəlb edilməsində maraqlı olmalıdırlar"*

Bu sözləri Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib. O qeyd edib ki, işsizliklə bağlı olan problemlər, bütövlükdə, Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edirlər: "Ancaq mən bunu dəfələrlə demişəm. Bəzi qonşu ölkələrdən fərqli olaraq, bizim əhalimiz artır. Cənubi Qafqazda Azərbaycan yeganə ölkədir ki, əhalisi artır və Sovet dövründən sonra müstəqillik illərində demək olar ki, 30% artıb, 7 milyondan 10 milyona çatıb. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın və iş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə də icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyalar cəlb etməlidirlər ki, yerli istehsal artsın, işsizlik daim aşağı səviyyədə olsun".

İcra başçılarının yerli və xarici biznes dairələri ilə birgə iş qurmasının vacibliyi barədə Prezident dəfələrlə icra başçılarına çağırışlar edib. Bu sahədə istənilən nəticəni necə əldə etmək olar?

Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərova müraciət etdik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkə başçısı bir neçə dəfə icra başçılarına, bölgələrdə fəaliyyət göstərən biznesmenlərə müraciət edib ki, onlar yerli və xarici investorlarla birgə işləməkdə maraqlı olsunlar. Hətta Prezident regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ilə bağlı iclaslarda da bu məsələyə toxunub. Prezident dəfələrlə çıxışı zamanı qeyd edib ki, hər bir işin paytaxt tərəfindən icra olunmasını gözləmək bugünkü çağırışlara cavab vermir. Ümumiyyətlə, hər regionun icra başçısı maraqlı olmalıdır ki, orada sahibkarlıq fəaliyyəti inkişaf etsin. İcra başçıları bununla bağlı əhali arasında müəyyən çağırışlar etməli, onlar arasında təbliğat işi aparmalıdırlar. İcra başçıları bilməlidirlər ki, regionlara investisiyaların cəlb olunması, müvafiq biznes fəaliyyətinin təşkil edilməsi, eyni zamanda, yeni iş yerlərinin açılması, gəlir gətirən sahələrin yaradılması kimi işlərin Bakıda həll olunacağını gözləmək düzgün deyil.

*"...gəlir gətirən sahələrin yaradılması kimi işlərin Bakıda həll olunacağını gözləmək düzgün deyil"*

**Dövlət başçısı tərəfindən təyin olunan icra başçılarından tutmuş, bələdiyyələrə qədər regionlara investisiyaların cəlb edilməsində maraqlı olmalıdırlar".**

***Günel CƏLİLOVA***

**Azərbaycanda prioritet vəzifə kimi qarşıya qoyulan iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də qeyri-neft sənayesinin inkişafıdır. Dövlət başçısı İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi də məhz bu sahəyə xüsusi önəm verilməsinin bariz ifadəsidir.**




# Hacıqabul sənaye zonası təcrübəsi özünü doğruldacaqmı...

***Vüqar Bayramov:** "Hacıqabulda sənaye parkının yaradılması həmin rayonda yeni iş yerlərinin açılmasına səbəb olacaq"*

Xatırladaq ki, adıçəkilən sənəd qeyri-neft sənayesi ilə bağlı yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanıb. Bu zaman mövcud sahənin rəqabətqabiliyyətliyi, innovativliyi və iqtisadi inkişafı dəstəklənməsi prinsipləri diqqət mərkəzində saxlanıb.

Son illər müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində ölkəmizdə sənayeləşmə sürətlə inkişaf edib, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişləndirilməklə yanaşı, yeni sənaye sahələri yaradılıb, respublikamızda bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib.

Qeyd edək ki, yaradılan sənaye məhəllələri kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir. Hazırda Neftçala, Masallı sənaye məhəllələri uğurla fəaliyyət göstərir. Dövlət başçısının modern sənayeləşmə siyasətinin növbəti töhfəsi olaraq bir sıra bölgələrdə də sənaye məhəlləsinin yaradılması barədə tapşırıqlar verilib.

Prezident İlham Əliyev Hacıqabul rayonuna və Naftalan şəhərinə yeni təyin olunmuş icra hakimiyyəti başçılarını qəbul edərkən bildirib ki, Hacıqabul rayonunun potensialının inkişafı üçün onun göstərişilə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaq və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcək: "Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var, həm Sumqayıtda, həm Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıb və yaradılır. Ona görə sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir".

*"...həmin bölgədə ölkə daxilində tələb olunan sənaye məhsullarının istehsalının təşkili mümkün olar"*

Prezident Hacıqabul sənaye zonasının yaradılması haqqında tapşırıq vermişdi. Maraqlıdır, bu zona yaradılarsa, səmərəli olacaqmı?

İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, iqtisadiyyatda vacib olan məqamlardan biri də sənaye müəssisələrinin sayının artırılmasıdır: "Sənaye parklarının əhəmiyyəti daha çox regionların payına düşür. Neftçalada yaradılan sənaye parkları innovativ sənaye məhsulları istehsal edir. Hacıqabulda da oxşar sənaye parkının yaradılması mümkündür. Hacıqabulda sənaye parkının yaradılması həmin rayonda yeni iş yerlərinin açılmasına səbəb olacaq. Bununla yanaşı, sənaye parkı yaradılarsa, Hacıqabula yeni investisiyaların cəlb olunmasına imkan verəcək".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Hacıqabulda sənaye zonası yaradılarsa, həmin bölgədə ölkə daxilində tələb olunan sənaye məhsullarının istehsalının təşkili mümkün olar. Bu baxımdan, Hacıqabul daxil olmaqla, bir çox bölgədə daha çox sənaye müəssisəsinin yaradılması daha məqsədəuyğundur.

***Günel CƏLİLOVA***



# Yediyimiz dönərlərdə piy əvəzinə sabun yağı - dəhşətli deyilmi...

## Eyyub Hüseynov: "...hətta ondan betəri də baş verə bilər"

**Türkiyə mətbuatının yazdığına görə, adıçəkilən ölkədə dönərxanalarla bağlı yeni fırıldaq ortaya çıxıb. Belə ki, ucuz baş gəlsin deyə, dönərə quyruq yağı əvəzinə, sabun istehsalında istifadə olunan yağ vurulur.**

Bu xəbərin yayılması əhali arasında böyük təlaşa səbəb olub. Artıq Türkiyədə dönər almaq istəyənlər qidanın keyfiyyətli olduğunu bilmək üçün dönərin tərkibini əks etdirən sənəd tətbiq olunmasını tələb edirlər.

Belə bir iddia var ki, analoji hal ölkəmizdə də yaşanır. Dönər satışı ilə məşğul olanlar dönərin ucuz başa gəlməsi üçün ona quyruq yağı deyil, sabun istehsalında istifadə olunan yağ vururlar.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, Azərbaycanda nəinki beləsi, hətta bundan təhlükəli hallar ola bilər: "Konkret olaraq şikayət olmayıb. Lakin istisna olunmur ki, bu, Azərbaycanda da ola bilər. Bir yerdə ki, nəzarət yoxdur, dönərlər haradan, necə gəldiyi bilinməyən ətlərdən hazırlanırsa və bu dönərxanaların 80 faizi qeydiyyatdan keçməyibsə, nəinki Türkiyədəki hadisə, hətta ondan betəri də baş verə bilər".

Birlik sədrinin sözlərinə görə, ölkədə dönərləri qanuni hazırlayan iki müəssisə var. Bu şirkətlər əti mənfi 40 dərəcə dondururlar. Səbəb də bütün heyvan xəstəliklərinin ətlərin içərisində ölməsidir: "Şişə taxılmış və dondurulmuş şəkildə dönərxanlara gətirilir. Dönərxanların heç bir faizi də oradan ət almır. Bu şirkətlərdə həm quş dönəri, həm də iribuynuzluların dönərini hazırlamağa icazə var. Dönərxanaların bu şirkətlərdən ət almamasının səbəbi daha ucuz ət axtarışında olmalarıdır. Biz dönərxanalara getsək, orada sertifikat asıldığını görərik. Bu sertifikatın o dönərə aidiyyəti yoxdur. Hansısa firmadan bir az ət alıb, sertifikat tələb edirlər. 3 il öncə dövlət orqanları dönərxanaların standartlarını hazırlayıb. Bu sənədlərdə hər şey əks olunub. Ancaq bu tələblərin 90 faizinə əməl olunmur. Yəni nəzarət zəifdir, istehlakçı nəzarəti də zəifdir.

*"İstisna olunmur ki, Azərbaycanda da satılan dönərlərin tərkibinə sabun istehsalında istifadə olunan yağdan vurulsun"*

Bu səbəbdən də istehlakçılara tövsiyə edərdim ki, dönərxanalara gedəndə təhlükəsiz dönər almaq istəyirlərsə, sertifikat tələb etsinlər. O müəssisədən gələn dönərlər xüsusi yeşiklərə qablaşdırılır. Buraxılma tarixi və son yararlı olma müddəti göstərilir. Hansısa problemlə üzləşsələr, 1003 telefon xətti ilə AQTA-ya müraciət edə bilərlər".

***Günel CƏLİLOVA***



# Bakının bir addımlığında - Sahil qəsəbəsini ictimai marşrutsuz qoyan kimlərdir...

## Mais Ağayev: "Marşrut xətlərinin yenilənməsi nəticəsində Sahil qəsəbəsindən birbaşa paytaxtın mərkəzinə rahat və təhlükəsiz avtobuslar işləyəcək"

*"...daşıyıcı şirkət qarşısında bu problemin həll edilməsi üçün məsələ qaldırılıb"*

**Qaradağ rayonunun Azərbaycanın xəritəsində, iqtisadiyyatında özünəməxsus yeri vardır. Burada böyük sənaye müəssisələri yerləşir.**

Qaradağ paytaxtın ən böyük sənaye rayonu olsa da, sosial-iqtisadi infrastrukturu digər rayonlara nisbətən zəifdir. Qeyd olunan rayonun Sahil qəsəbəsində yaşayan sakinlər marşrut problemindən əziyyət çəkir.

Sakinlər iddia edir ki, qəsəbədən Bakının mərkəzinə heç bir marşrut avtobusu işləmir. Bu səbəbdən sakinlər istədiyi ünvana getmək üçün ya taksi, ya da əlavə 2 marşrut xəttindən istifadə etməlidir. Bu isə əlavə vəsait və vaxt itkisinə səbəb olur.

Qeyd edək ki, təxminən 45 mindən çox əhalisi olan qəsəbədən paytaxtın mərkəzi hissəsinə heç bir marşrut avtobusu işləmir.

Onu da bildirək ki, problemdən ən çox əziyyət çəkənlər tələbələr və şəhərin mərkəzində işləyən sakinlər olur. Onlar tezliklə qəsəbədən paytaxtın mərkəzinə marşrut xəttinin açılmasını istəyirlər.

Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirdi ki, qeyd edilən istiqamətdə mövcud problemlə bağlı agentliyə çoxlu sayda müraciətlər olub. M.Ağayev qeyd etdi ki, agentlik tərəfindən Sahil və Lökbatan qəsəbələri istiqamətində fəaliyyət göstərən daşıyıcı şirkət qarşısında bu problemin həll edilməsi üçün məsələ qaldırılıb: "Onlara yazılı və şifahi xəbərdarlıq edilməsinə baxmayaraq, daşıyıcı şirkət problemin aradan qalıdırılması üçün heç bir tədbir görməyib. Elə buna görə də marşrut xətlərinin yenilənməsi işləri çərçivəsində probləmə laqeyd yanaşan bu daşıyıcı şirkət marşrut şəbəkəsindən uzaqlaşdırılacaq. Əvəzində isə Sahil qəsəbəsindən birbaşa paytaxtın mərkəzinə rahat və təhlükəsiz avtobuslar işləyəcək".

***Günel CƏLİLOVA***



# Azərbaycanda "Turizm Könüllüləri" Təşkilatı təsis edildi

**"Turizm Könüllüləri" Təşkilatı geniş ictimaiyyətə təqdim edilib. "Trend"in məlumatına görə, "Turizm Könüllüləri" Təşkilatı İctimai Birliyi Bakı Konqres Mərkəzində dekabrın 5-də keçirilən təsis konfransında ictimaiyyətə təqdim edilib.**

Qeyd edək ki, konfrans Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Könüllülük Həftəsi" çərçivində baş tutub.

Dövlət Turizm Agentliyinin Turizm siyasəti və strategiyası şöbəsinin müdiri, Turizm Könüllüləri Təşkilatının həmtəsisçisi Məhəmməd Muradov deyib ki, təşkilatın məqsədi ictimai formada turistlərə yardımı təşkil etmək, bu istiqamətdə ali təhsil müəssisələri ilə əməkdaşlığı təşviq etmək, milli və beynəlxalq səviyyədə turizm sahəsi üzrə könüllü iştirakçılığın önəmini təbliğ etməkdir.

Turizm Könüllüləri Təşkilatının direktoru Hüseyn Məmmədov bildirib ki, könüllülər Dövlət Turizm Agentliyi və tabeliyində olan qurumlar tərəfindən həyata keçirilən fəaliyyətlərə və təcrübə proqramlarına cəlb ediləcəklər.

Onun sözlərinə görə, müxtəlif beynəlxalq proqramlara qoşulmaq da əsas hədəflərdəndir. Əsas məqsədlər turizm sahəsi üzrə dayanıqlı şəkildə peşəkar mütəxəssislərin yetişdirilməsi, turizm könüllülərindən ibarət vahid bazanın yaradılması, onların kateqoriyalar üzrə bölünməsi və s.-dir: "Könüllülər daha çox qoruqları idarəetmə mərkəzlərində çalışacaqlar. Könüllülərin inkişaf konsepsiyası çərçivəsində müxtəlif təlimlər keçiriləcək. Çalışacayıq ki, inkişaf konsepsiyası yalnız Bakıda deyil, regionlarda da həyata keçirilsin".

Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov çıxışında turizm sahəsində könüllü fəaliyyətin gənclər üçün gələcək iş imkanları və karyera ilə bağlı biliklər əldə etməkdə mühüm rol oynayacağını bildirib. O, Agentliyin ölkədə turizmin inkişafı yolunda atılan bütün addım və təşəbbüslərə daim dəstək nümayiş etdirdiyini diqqətə çatdırıb.

# Milli Azərbaycan Tarixi Muzeyi 100 illik yubileyə hansı görkəmdə gedir...

**Azərbaycanda, demək olar ki, bütün muzeylər dövlət qayğısı ilə əhatə olunub, muzeylərin inkişafına, təmir edilməsinə, eləcə də digər məsələlərə dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. Amma muzeylər özləri dövlət büdcəsinə hər hansı məbləğdə gəlir gətirməyə elə də cəhd göstərmirlər.**

Bununla belə, dövlətin muzeylərə diqqət və qayğısı davamlı xarakter daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix Muzeyi də daim dövlət qayğısı ilə əhatə olunub. Dəfələrlə sözügedən muzey təmir edilib, bərpaya cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 2020-ci ilin iyun ayında Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyi tamam olur.

"Milli Azərbaycan Tarixi Muzeyi mühüm mədəni-maarif və elmi-tədqiqat mərkəzi kimi yarandığı vaxtdan etibarən uğurlu inkişaf yolu keçmişdir. Respublikanın bu ilk ən böyük muzeyinin Azərbaycan xalqının qədim zamanlardan müasir dövrə qədərki tarixinin bütün mərhələlərini əks etdirən mədəniyyət nümunələrinin toplanması, qorunması, nəşri, ekspozisiya və sərgilərdə nümayişi sahəsində diqqətəlayiq xidmətləri var. Bakının memarlıq baxımından qiymətli tikililərindən sayılan binada yerləşmiş muzeyin tarixi-mədəni irsimizin misilsiz yadigarlarının mühafizə olunduğu zəngin elmi fondlarında hazırda üç yüz mindən artıq eksponat saxlanır. Muzey əməkdaşları tarix, muzeyşünaslıq və numizmatika istiqamətlərində araşdırmalar aparmaqla yanaşı, arxeoloji qazıntılar nəticəsində Azərbaycan tarixinə dair bir sıra abidələr üzə çıxarmış və əsaslı tədqiq etmişlər. Muzey çoxşaxəli fəaliyyətini bu gün də tarix elminin yeni nailiyyətləri və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunmuş prinsipləri zəminində müvəffəqiyyətlə davam etdirir" - deyə bildirilir.

100 illik yubileyinə Milli Tarix Muzeyi necə gedir?

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya fondunun müdiri Aida İsmayılova bizimlə söhbətində bildirdi ki, hazırda muzeydə aparılan təmir-bərpa işləri bitmək üzrədir. "Təmir-bərpa işləri hələ tam yekunlaşmayıb, görüləsi bəzi kiçik işlər var. Hələ ekspozisiya tam olaraq qurulmayıb, materiallar hələ yerləşdirilməyib. Çünki muzeydə siqnalizasiya, işıqlandırma və digər texniki məsələlər bitməlidir ki, ekspozisiyanı qurmaq mümkün olsun. Amma ekspozisiyaların necə yerləşdiriləcəyi, nəyin hansı mövzu üzrə təqdim ediləcəyi müəyyənləşdirilib. Yeni vitrinlər artırılıb, digər işlər də görülüb. Demək olar ki, işin çoxu görülüb, görüləcək çox az işimiz qalıb. Muzeyin yüz illiyi ilə bağlı yeni nəşrlər hazırlanır, muzeyin 100 illiyi ilə bağlı kataloq da çap olunacaq. Məlumatıma görə, muzeyin təmirdən sonra açılışı 2020-ci ildə baş tutacaq".

Muzeydə hər hansı bir yeniliyə gəlincə, A.İsmayılova qeyd etdi ki, əsas yeniliklər ekspozisiya ilə bağlıdır. Onun sözlərinə görə, muzeyin ekspozisiyasına yeni materiallar cəlb edilə bilər. "Animasiyaların hazırlanması məsələsi gündəmdədir. Milli Tarix Muzeyində gözlənilən yeniliklər var. Muzeydə qədim dövrləri (tunc, daş dövrü və s) əks etdirən animasiyalar yerləşdiriləcək, muzeyə gələn tamaşaçılar monitorda qədim dövrləri əks etdirən animasiyalar görəcək, bu da vizual olaraq onlar üçün həmin dövrün mənzərəsini yaradacaq. Belə məsələlər gündəmdədir. Muzeydə monitorlar yerləşdiriləcək və burada ekspozisiyalar tamam yeni səpkidə olacaq. Bundan başqa, muzeyə yeni materiallar da qoyulacaq. Bunlar da maraqlı olacaq. Muzeydə yeni şöbələrin yaradılması gündəmdə deyil" - deyə A.İsmayılova qeyd etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, o, bir tarixçi kimi muzeyin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Prezident tərəfindən verilən sərəncamı yüksək qiymətləndirir. "Tarix Muzeyinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamın verilməsi müsbət haldır. Tarix Muzeyində Azərbaycan xalqının yalnız 100 illik tarixinin deyil, həm də ondan əvvəlki dövrlərin də tarixinin əks olunması vacibdir. Yəni bütün tariximizi yalnız 100 il əvvəllə başlamağımız düzgün deyil. Burada varislik ənənələri qorunub saxlanmalıdır. Təkcə 1918-ci ildə qurulan Cümhuriyyətimizin deyil, ondan əvvəl mövcud olan türk xalqlarının dövlətçilik ənənələrinin də bu muzeydə əks olunması çox yaxşı olardı. Bu, gənclərin varislik ənənələrini yaxından dərk etməsinə imkan verər. Səfəvilər, Qacarlar, Əfşarlar, Baharlılar, Bayandurlular və başqa dövlətçilik ənənələrimizi yaradan, yaşadan nümunələrimiz, onların böyük şəxsiyyətləri, eyni zamanda, Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, Cümhuriyyət qurucuları ilə bağlı geniş məsələlər bu muzeydə öz əksini tapmalıdır.

Sözün həqiqi mənasında, Milli Tarix Muzeyi milli mahiyyətimizi geniş şəkildə ifadə etməlidir. Ümid edirəm ki, cənab Prezidentin Milli Tarix Muzeyinin 100 illiyi ilə bağlı verdiyi sərəncamı icra edənlər bu sərəncamın əsl mahiyyətini düzgün anlayacaq və onun icrasında heç bir qüsura yol verməyəcəklər. Milli Tarix Muzeyində milli ruhumuz, milli dövlətçilik ənənələrimiz burada çalışanlar tərəfindən tam olaraq qorunmalıdır" - deyə F.Ələkbərli qeyd etdi.



***Aida İsmayılova:** "Muzeydə qədim dövrləri (tunc, daş dövrü və s.) əks etdirən animasiyalar yerləşdiriləcək"*

***Faiq Ələkbərli:** "Burada varislik ənənələri qorunub saxlanmalıdır"*

***İradə SARIYEVA***

# Azərbaycanda turistləri ən çox narazı salan vəziyyət...

**Ölkəmizin turizm üçün böyük potensiala malik olması məlumdur. Amma təəssüf ki, turizm bölgələrində xidmət səviyyəsi elə də ürəkaçan deyil. Hətta bir sıra turizm zolaqlarında sanitar qovşaqları ilə bağlı ciddi problemlər yaşanır, bu da turistlərin narazılığına səbəb olmaya bilmir.**



***İlqar Hüseynli:*** *"Turizm dəhlizləri boyu yeni sanitar qovşaqların qurulması üçün xüsusi layihələr həyata keçirilməlidir"*

Bu ciddi problemin həlli istiqamətində təxirəsalınmaz işlərin görülməsi zərurətə çevrilib.

Bu məsələni Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov da vurğulayıb. O, qeyd edib ki, turizm dəhlizləri boyunca sanitar qovşaqların olmaması regionlara gedən turistləri narahat edir.

K.Qasımovun sözlərinə görə, artıq bununla bağlı işlər görülür və yekunlaşmaq üzrədir: "Turizm dəhlizləri boyu müəyyən olunmuş sahələrdə sanitar qovşaqların tikintisi nəzərdə tutulub".

Sosial sahə üzrə tanınmış ekspert İlqar Hüseynli isə hesab edir ki, bu problem yalnız sanitar qovşaqların olmaması ilə məhdudlaşmır. Hüseynli baki-xeber.coma açıqlamasında turistlərin qarşısını kəsən digər amillərin də olduğunu, bunlardan birinin də xidmət səviyyəsinin aşağı olması olduğunu deyib. "Turizm sektorunun əsas hissəsi özəl sektorun payına düşür, bu sahədə dövlətin payı azdır. Bu baxımdan, özəl sektor bilavasitə turistlərin cəlb edilməsində maraqlı olmalıdır ki, öz turizm potensialını, imkanlarını artırmış olsun. Hər bir turist şirkəti, turizm məkanı, otellər özlərinə nəzarət mexanizmi qurmalıdır. Turizm məkanlarında turistlərin fikirlərinin, rəylərinin qeyd edilməsi üçün sorğu sistemləri qurulmalıdır. Bu da problemin yerindəcə həllinə səbəb ola bilər. Azərbaycanda sanitar qovşaqların yenilənməsi əsasən paytaxtda və digər iri şəhərlərdə baş verir. Təəssüf ki, ucqar rayon və kəndlərin sanitar qovşağı yenilənmir, köhnələr də bərpa edilmir. Halbuki, turizm üçün əlverişli olan bölgələrin sanitar sisteminin, kanalizasiya qurğularının yenilənməsinə ciddi ehtiyac var. Çünki turistlər əsasən bölgələrə üz tuturlar və bölgələrdə yerləşən turizm məkanlarında onlar üçün hər cür xidmətin göstərilməsi üçün şərait yaradılmalıdır. Turizm dəhlizləri boyu yeni sanitar qovşaqların qurulması üçün xüsusi layihələr həyata keçirilməlidir. Bu sistemlərin qurulmasına qeyri-ciddi yanaşmaq olmaz. Bu olduqca vacibdir. Bəzi sahibkarlar belə məsələlərə əhəmiyyət vermək istəmirlər, amma bu onlar üçün turist itkisinə başa gələ bilər. Halbuki sahibkarların göstərdiyi xidmət mükəmməl olmalıdır ki, turistləri cəlb edə bilsin".

İ.Hüseynli hesab edir ki, turizm zolaqlarında yeni sanitar qovşaqlar yaradılarkən təbiət amilləri də nəzərə alınmalıdır.

Bu gün Xəzərətrafı bölgələrdə çox acınacaqlı vəziyyət olduğunu deyən İ.Hüseynli bildirir ki, bu sistem quraşdırılarkən onun neytrallaşdırılması üçün təmizləyici qurğuların da qoyulması önəmlidir. Kanalizasiya axıntılarının çirklənmə yaratdığını deyən İ.Hüseynlinin sözlərinə görə, bütün bunlar baş verərsə və turizm obyektlərində xidmət səviyyəsi yüksələrsə biz daha çox turist cəlb edə bilərik.

***İradə SARIYEVA***

# Bakıda şagirdlərə qanunsuz attestat verən direktor işdən çıxarıldı



**Valideynlərin və müəllim kollektivinin şikayəti əsasında Bakı şəhəri 323 nömrəli tam orta məktəbin direktoru ilə bağlı yerində araşdırma aparılıb. Bu barədə "Trend"ə Təhsil Nazirliyindən məlumat verilib.**

Araşdırma nəticəsində direktor Günay Rüstəmova tərəfindən məktəbdə təlim-tərbiyə prosesinin təşkil edilməsi və həyata keçirilməsinin keyfiyyətsiz olması, şagirdlərin yekun nəticələrində düzəlişlər edilməsi, təlim nailiyyətləri kifayət etməyən bəzi şagirdlərə qanunsuz olaraq ümumi orta təhsil haqqında fərqlənmə attestatlarının verilməsi, həmçinin "Xüsusi hallar barədə" əmrin və "Məktəb sənədlərinin aparılması və saxlanması haqqında" təlimatın tələblərinin pozulması müəyyən edilib.

Müəssisəyə rəhbərlik və nəzarətdə ciddi nöqsanlara yol verdiyi, vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyi, öhdəlik və vəzifə funksiyalarını yerinə yetirmədiyinə görə məktəbin direktoru Günay Rüstəmova ilə bağlanmış əmək müqaviləsinə xitam verilib.

# Kredit alıb qaytarmayan vəzifəli şəxsin əmlakına həbs qoyuldu



**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə "UNİMARK SYSTEMS" MMC-nin təsisçisi və direktoru Rövşən Əhmədovun Cəmiyyətin baş mühasibi Rauf Xəlilovla əlbir olmaqla MMC-nin 2012-ci il üçün fəaliyyəti ilə bağlı Vergilər Nazirliyinə təqdim etdiyi mənfəət vergisinə dair bəyannamənin məzmununa bilə-bilə şişirdilmiş yalan məlumatlar daxil etdiyi,** kredit sifarişini öz imzası və cəmiyyətin möhürü ilə təsdiq edib 2013-cü ildə hazırda ləğvetmə prosesində olan "Texnikabank" ASC-nin "Muğan" filialına təqdim edərək bankla aralarında bağlanmış kredit müqaviləsi əsasında 447 min manat məbləğində kredit vəsaitini götürdüyü, həmin kredit vəsaiti üzrə 266 min manat məbləğində pul vəsaitini qəsdən ödəməyərək "Texnikabank" ASC-nin qanuni mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurduğuna dair əsaslı şübhələr müəyyən edilib.

R.Əhmədov və R.Xəlilov Cinayət Məcəlləsinin 195.2 (qanunsuz kredit alma külli miqdarda ziyan vurduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə R.Əhmədovun 808 min manat məbləğində əmlakı üzərinə həbs qoyulub və cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilib.

Respublika Prokurorluğu bu kateqoriyadan olan cinayətlərin törədilməsinə şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verəcək neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri tədbirlərin davam etdiriləcəyini bəyan edir.

№ 217 (4115) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Elektrik enerjisindən istifadə etməyən yeni hesablama qurğusu...



Massaçusets Texnologiya İnstitutunun (MTİ) alimləri tərəfindən hesablama prosesləri üçün təklif edilmiş yeni metod sayəsində qurğu elektrik enerjisindən istifadə etməyəcək və istilik ayrılmayacaq.

Alimlər bunun üçün maqnit materialları və onların xüsusiyyətlərindən istifadə ediblər. "İctnews.az" bildirir ki, onlar, həmçinin kvant effektlərindən istifadə edirlər (məsələn, elementar zərrəciklərin spin anının daşınması). Beləliklə, onların qurğusu elektrik enerjisi sərf etmədən, yalnız maqnit və spin effektləri ilə bir vəziyyətdən digərinə keçə bilər. Alimlər əmindirlər ki, yeni metod ətraf mühitə zərərli maddələrin atılmasını azaltmağa imkan verəcək və gələcəkdə qurğuların gücünü artıracaq. Ənənəvi kompüterlər hesablamalar və məlumatların saxlanılması üçün böyük miqdarda elektrik enerjisi istifadə edirlər və boş-boşuna xeyli istilik ayrılır. Tədqiqatçılar daha səmərəli alternativ axtarışı üçün nisbətən az elektrik enerjisi sərf edən və demək olar, istilik ayrılmayan maqnit əsasında "spinotron" qurğuların hazırlanmasına başlayıblar.

## Elan

Bayramov Süleyman Allahverən oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş fizika-kimya magistr diplomu itdiyi üçün etibarsız sayılır.

Qurbanova Fəridə Yadulla qızının adına, Xəzər rayonu, Binə südçülük savxozunda yerləşən ünvana verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Abdullayev Vüqar Mayıl oğlunun adına əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Məmmədova Gözəl Şamil qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, sıra 6, ev 33 ünvanının çıxarışı (kupça) və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Əliyeva Aktaş Nəcibə Arif qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, ev 110, mənzil 26 ünvanının çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Şəkiyev Nadir Kərim oğlunun adına, Neftçala rayonu, Xəzər kəndində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-177 kod 80700057) itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Sevda Məhəmməd qızının adına, Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən ünvana verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Məmmədov Fərid Qalib oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Çində SİM kart alarkən sifətin məcburi skan edilməsi həyata keçirilir

**Artıq yeni SİM kart alıcılarının sifəti Çinin mobil operatorları tərəfindən skan edilir. "İctnews.az" bildirir ki, belə bir addımın "yeni telefon abunəçilərinin öz adı ilə qeydiyyatdan keçməsinə, vətəndaşların kiberməkanda qanuni hüquq və maraqlarının etibarlı müdafiəsinin təmin edilməsinə, internet və telekommunikasiya saxtakarlığına qarşı effektiv mübarizə aparılmasına, telekommunikasiya şəbəkələri ilə bağlı yeni çağırışlara cavab verilməsinə" kömək edəcəyi təxmin edilir.**

Bundan əvvəl Çində SİM kart alarkən vətəndaşlar məcburi surətdə şəxsiyyət vəsiqəsi və ya pasport təqdim etməli idilər. Dekabrın 1-dən etibarən isə sifətin məcburi skan edilməsi də tələblərə əlavə edilib. Bu, süni intellekt və başqa ən yeni texnologiyaların köməyi ilə SİM kart almaq istəyən insanın sifətini və sənəddəki şəkli müqayisə etmək üçün tətbiq edilib.

## Biosensorla təchiz edilmiş eynək diabet xəstəliyini müəyyənləşdirməkdə kömək edəcək

**Braziliyalı və amerikalı alimlər tərəfindən eynək üçün hazırlanmış biosensor istifadəçinin göz yaşları vasitəsilə qanda qlükozanın səviyyəsini ölçə bilər. Qurğu diabet xəstəliyindən əziyyət çəkən insanlarda qlükozanın səviyyəsinə nəzarət etməyə kömək edəcək.**

Bu xəstəlikdən ABŞ-da 62 milyon və dünyada 380 milyon nəfər əziyyət çəkir. "İctnews.az" bildirir ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son onillikdə aşağı və orta gəlirli ölkələrdə diabet xəstəliyinin geniş yayılması müşahidə olunur. 2035-ci ilədək sözügedən xəstəlikdən əziyyət çəkənlərin sayı 580 milyon nəfərə yaxınlaşa bilər. Bu xəstəlikdən əziyyət çəkən bir çox insan yığcam qlükoza sayğacından istifadə edir ki, bu da barmağın deşilməsini nəzərdə tutur. Bu proses gün ərzində bir neçə dəfə təkrarlana bilər ki, bu da ağrılıdır və kiçik yoluxma riski daşıyır. Eynəyə quraşdırılmış yeni biosensor istifadəçinin göz yaşlarında qlükoza molekullarını müəyyənləşdirə, həmçinin qanda şəkər, vitamin və alkoqolun səviyyəsini ölçə bilər.





**Qoç** - Başlanmış işləri yekunlaşdırmaq üçün daha çox münasib olan neytral gündür. Bu gün hətta ən enerjili və yorulmaz adamlar da hərəkətdən daha çox düşünməyə meyllidirlər. Odur ki, bu gün möhtəşəm qələbələr gözləməyə dəymez.



**Buğa** - Sabit emosional fon komfortlu ünsiyyəti təmin edir. Qarşılıqlı anlaşma olmasa da, münaqişələr də olmaycaq. Romantik görüşlərə böyük ümidlər bəsləməyə dəyməz.



**Əkizlər** - Həddindən artıq ziddiyyətli gündür. Gücünüzü düzgün hesablamaq çətin olacaq. Gözlənilməz təsadüf, hadisələrin ağlasığmaz şəkildə inkişafı planlarda köklü dəyişikliklərə vadar edəcək.



**Xərçəng** - Sizin üçün uğursuz və çətin gündür. Qurduğunuz planlar həyata keçməyəcək, çətin və birmənalı olmayan vəziyyətə uyğunlaşmalı, ətrafdakıların dolaşıq qarşılıqlı münasibətlərindən baş çıxarmalı olacaqsınız.



**Şir** - Ünsiyyət üçün əlverişli gün deyil. Hətta, köhnə müttəfiqlər, bir-birlərinə yaxın insanlar arasında da münaqişələr yarana bilər. Maliyyə və mülk məsələləri həll etmək məsləhət deyil.



**Qız** - Gününüz maraqlı keçəcək. Yaradıcılıq potensialınız yüksək olduğundan nə özünüz bekar oturacaq, nə də başqalarına vaxtlarını boş keçirməsinə imkan verəcəksiniz. Yeni tanışlıqlar, xoş görüşlər mümkündür.



**Tərəzi** - Uğurlar və qələbələr vəd edən gözəl gündür. Yaradıcılıq potensialınız çox yüksəkdir. Ona görə də bədxahlarınız və rəqibləriniz manevəçilik törətməyə çalışsalar belə, istənilən məqsədinizə çata biləcəksiniz.



**Əqrəb** - Çox maraqlı məsələnin həlli ilə məşğul olacaqsınız. Əgər onun öhdəsindən layiqincə gəlsəniz, maraqlı təkliflər və karyera yüksəlişi özünü çox gözlətməyəcək. Yeni partnyorların axtarışı, əməkdaşlığa başlamaq üçün pis gün deyil.



**Oxatan** - Gün kifayət qədər sakit keçəcək. Heç nə planlarınızı həyata keçirilməsinə mane olmur və bu, sevindirməyə bilməz. Çətin vəzifələrə, irimiqyaslı layihələrə girişmək olar. Siz köməkçi, müttəfiq və həmfikirləri asanlışla tapacaqsınız.



**Oğlaq** - Çox uğurlu və istənilən başlanğıc üçün münasib gündür. Bu gün istənilən işin öhdəsindən gəlməyə, rəqiblərinizi üstələməyə və yeni səviyyəyə yüksəlməyə qadirsiniz. Həm özünüzün, həm də başqalarının ideyalarının həyata keçirilməsi üçün əlverişli gündür.



**Dolça** - Bu gün ümidlərinizi doğrultmayacaq. Çox darıxdırıcı və sönük gündür. Yeni işlər, yeni təəssüratlar arzulasanız da, təəssüf ki, ulduzlar bunu təklif etməyə hazır deyillər. Şəxsi həyatda isə işlər bir qədər yaxşıdır.



**Balıqlar** - Günün ritminə uyğunlaşmaq, enerjinizi dinc məcraya yönəltmək çətin olacaq. Nəsə faydalı və vacib işlə məşğul olmaq istəsəniz də, bunun məhz hansı iş olduğunu müəyyənləşdirə bilməyəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Robot 100 min elmi eksperiment aparıb

**Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları bir ilə 100 min eksperiment aparan robot yaradıblar.**

"İctnews.az" bildirir ki, təkrarlanan hərəkətlər tələb edən eksperimentlərdən biri reaktiv izlər vibrasiyası olub. Bu parametr gəmilərin layihələndirilməsində böyük əhəmiyyətə malikdir. Belə ki, müşahidəçi obyektin su üzərində hərəketini min dəfə öyrənməli olur. Bu isə insan üçün çox yorucudur və çox vaxt tələb edir. Lakin robot bu vəzifənin öhdəsindən daha yaxşı gələ bilir. Yeni mexanizm yaradıcılarının sözlərinə görə, robota eksperimentləri düzgün aparmağa imkan verən məntiqlə təchiz edilməsi ən çətin iş olub. O, təkcə təkrarlanan hərəkətləri yerinə yetirmir, həm də nəticələri təhlil edir, eləcə də, əlavə məlumatın əldə edilməsi üçün eksperimentə düzəlişlər edir. Robotun köməyi sayəsində tədqiqatçılar səyləri daha vacib məşğuliyyət və kəşflərə yönəldərək mexanizmə monoton iş tapşırıblar. Gələcəkdə alimlər insanlar və robotlar arasında əməkdaşlığı genişləndirəcəklər ki, bu da qısa zaman ərzində çətin vəzifələrin öhdəsindən gəlməyə imkan verəcək.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.